NİZAMİ CƏFƏROV

Samad Mansurun poeziyası

AZ-I
42975

Azərbaycanda Atatürk Mərkəzi

Nizami Cəfərov

MİLLİ RƏQƏMSAL YADDAŞ

SƏMƏD MƏNSURUN POEZİYASI

"Elm və təhsil"
Bakı -2017

AMEA Mərkəzi Elmi Kitabxana və İnformasiya Resursları Mərkəzi
«___»_____20__il

Elmi redaktor: **Kərim Tahirov,**
professor

Redaktor: **Dəyanət Osmanlı**

***Nizami Cəfərov*. Səməd Mənsurun poeziyası.**
"Elm və təhsil", Bakı, 2017, 80 səh.

ISBN 978-9952-8176-3-8

© «Elm və təhsil», 2017

Səməd Mənsurun qayıdışı

Görkəmli ədəbiyyatşünas alim, tənqidçi Nizami Cəfərov uzun illər unudulmuş və az qala unutdurulmuş şairimiz Səməd Mənsur haqqında dəyərli kitab yazıb.

Bəzən deyirlər: «filan klassikimizi yetərincə təbliğ edə bilməmişik». Bu fikir mənə mübahisəli görünür. Hər bir yazıçının, şairin ən böyük və ən əsas təbliğat mənbəyi onun öz əsərləridir, əgər öz yaradıcılığıyla maraq oyatmayıbsa, yüz tərifli yazıyla onu məşhurlaşdırmaq mümkün deyil. Bu, şübhəsiz belədir, amma onu da unutmamalıyıq ki, hər bir sənətkarın onun özünə layiq şəkildə tədqiq olunması, yaradıcılığını dövrün kontekstində, sələfləri və xələfləriylə müqayisədə araşdırılması, müəllifin ədəbiyyat tarixində yerinin müəyyənləşdirilməsi də çox önəmli məsələdir.

Nizami Cəfərovun Səməd Mənsur irsinə belə toplu baxışı, şairin zəngin poeziyanı müxtəlif dövrlər, üslublar üzrə təsnif etməsi, haqqında daha əvvəl yazılanlara nəzər salıb dəyərləndirməsi, yaradıcılığını sələfləri və çağdaşlarıyla müqayisəli şəkildə tədqiq etməsi Səməd Mənsurun ədəbiyyat tariximizə sanballı şəkildə qayıdışı kimi qiymətləndirilə bilər.

Səməd Mənsurun adına ilk olaraq rast gəldiyim mətnlərdən biri atamın «Rənglər» silsiləsiydi. Bu başı bəlalı silsiləni tamamlayan son şeir «Əl vurmayın, rənglənib» adlanırdı və ən çox da tənələrə, rişxəndlərə məruz qalan elə bu

şeirin misraları idi. Doğrudan da, necə yəni «Qara qatıq, ağ qurum, yeməli qum?» Tənqidçilər Rəsul Rzanı öyrədirdilər ki, qatıq ağ, qurum qaradır və qumu yemək olmaz. Bir şeyi nəzərə almırdılar – şeirin adını. 1960-cı ildə yazılmış «Əl vurmayın, rənglənib» sözləri məhz tərs yozumlara, saxta dəyərlərə, yalan anlayışlara işarə vururdu və məhz bu yöndən Səməd Mənsurun məşhur «Həpsi rəngdir» şeiriylə çağdaş dildə və çağdaş üslubda səsləşirdi. Bu şeirə Səməd Mənsurun adının düşməsi də təsadüfi deyildi.

Fil görünən birələr,
Səməd Mənsur haqqında xatirələr
Doğruya bənzəyən yalanlar.

Sonralar Səməd Mənsurun 1926-cı ildə nəşr olunmuş həmin şeirini tapıb oxudum, daha sonralar isə məşhur teatr rejissorumuz Tofiq Kazımovun şairin oğlu olduğunu bildim. Tofiq müəllim «Şəhərin yay günləri» pyesimi tamaşaya qoyanda onunla daha sıx-sıx ünsiyyətdə olurduq, bəzən tamaşanın bəstəkarı Emin Sabitoğluna və mənə atasının çap olunmamış şeirlərini oxuyurdu. Bir dəfə Tofiq müəllimə ərklə: «bütün dünya teatrları Brextin əsərlərini tamaşaya qoyur, -dedim. -Siz niyə onun dramaturgiyasına müraciət etmirsiniz?» Cavab verdi ki, «zəhləm Brextdən gedir, sital (məhz bu sözü işlətdi) kommunistdir. Heç dəxli var, sən Allah, camaatı evindən eşiyindən at, var-yoxunu əlindən al ki, hamı bərabər olmalıdır»....

Onun bir qədər qabardaraq dediyi bu fikirdə, həqiqətən də, kommunist idealogiyasının mayasından gələn əqidəyə etiraz vardı və sonralar başa düşdüm ki, bu müna-

sibətin kökü atasının o çap olunmamış satirasından gəlir hardasa...

Bir dəfə mənim xahişimlə atasının çap olunmamış şeirlərini mənə və Eminə verdi. Əlbəttə, o vaxt bunları nəşr etmək mümkün deyildi, şeirlər məndə qaldı və necə deyərlər, «saxla samanı, gələr zamanı». Dövr, quruluş dəyişdi və Səməd Mənsurun ümumiyyətlə ilk kitabı olan «Həpsi rəngdir» adlı toplusunu tərtib edib həmin şeirləri də ora saldım. Kitabı nəşr edən hörmətli jurnalistimiz rəhmətlik Hacı Hacıyevi də minnətdarlıq hissiylə yad etməliyəm.

Kitabının bir fəslini «Sabirdən sonrakı Sabir» adlandıran Nizami Cəfərov bu təbirində tamamilə haqlıdır. Səməd Mənsur, əlbəttə, öz istedadı çərçivəsində, sovet dövründə Sabir satirasının ilk görkəmli nümayəndəsi sayıla bilər. Amal Sabir amalı idi, dövr o dövr deyildi. Nizaminin bir qənaəti də çox dəqiqdir: «Sovet ədəbiyyatşünaslığı «tənqidi realizmi» qəbul etmişdi, ancaq o şərt ilə ki, bu tənqid (və onun realizmi) sovetləşmədən əvvəlki illərlə yekunlaşmalı, bir-iki gün də bu tərəfə keçməməli idi»

Düzdür, sovet dövrünün ədəbiyyatında tənqidi realizm «sosialist realizmi», başqa sözlə, «tərifli realizm»lə əvəz edilmişdi. Səməd Mənsur poeziyası isə, təbii ki, bu metoda uyğun gəlmirdi. «İmkan düşən kimi Cavidin, Cavadın özlərini, sonra sözlərini həbs etdilər. Mənsurun isə otuzlara qalmadığından sözü məhbəsə atıldı». Bu da düzdü...

«İki aşığın deyişməsi»ndə Qoca aşığın sorularına qarşıduranı belə cavab verir:

O kəndlidir, qan ağlayır qəmindən,
İspalkomdur, heç düşməyir dəmindən.

Başqa bir sorunun cavabı:

İnqilabdır, qazan kimi qaynayır,
Dövlətlidir, dil-dodağın çeynəyir.
Narkomlardır, heç bilməyir neyləyir,
Söz soran aşığa Allah yar olsun.

O fəhlədir, aran bilməz, qış bilməz,
Dövlətlidir, pul qazanar, iş bilməz.
O, kəndlidir, aylarla bişmiş bilməz,
Söz soran aşığa Allah yar olsun.

Və nəhayət:

O, ÇEKAdı, surətləri soldurur,
O, rüşvətdir, cibişdanı doldurur,
Təriflərdir toyuqları güldürür
Söz soran aşığa Allah yar olsun.

37-ci ilə qalsaydı, ən azı elə bu şeirə görə (axtarış zamanı evindən çıxa bilərdi) ÇK şairi «soldurardı».

Aqibətini bilirdi Səməd Mənsur, amma onu da bilirdi ki:

«Bu, tarixi heç təyin edilməyən əsgi dünyada milyard-milyard insanlar gəlib yaşamış və ölmüşlər, bunların içində milyon-milyon canilər, xainlər, qatillər, oğrular yaşamışlardır, eyni zamanda milyonlar ilə də mələk xislətli, pak vicdanlı inasanlar da bulunmuşlardır. İndi baxsanız, dünyada nam-nişan qalmışsa, həpsi vicdanlı taqımın içindən çıxan ərbabi-hünərdən qalmışdır. Milyonlarla yaşamış alçaqlardan isə heç bir nişan aləmdə qalmamışdır» («Övladlarıma vəsiyyətim»dən).

Bu sözlərdən sonra əlavə etdiyi kövrək cümlələr isə riqqləndiricidir:

«Bu zəmanə alçaqlıq zamanı, ayaqöpənlər, vicdansızlar meydanıdır. Bu zəmanədə hər kəs vicdanını satmaqla yaşayır. Vicdanlar alqı-satqı malı olmuşdur. Üzlərdən həyalar mədum olmuşlar, insaf və mürüvvətdən əsər qalmamışdır. Lakin mən, atanız, vicdanımı hifz etdim. Ac da qaldım, təməllüq etmədim. Kimsənin qabağında kiçilmədim».

Bu sözləri ilk dəfə Nizami Cəfərovun kitabında oxuyarkən gözlərim qarşısında bir çox işıqlı insanlarımızın surətləri canlandı. Öz mənfəətiyçün bir quruş para qazanmadan qapı-qapı varlıların ayağına gedib «Əkinçi»ni çıxarmaq üçün vəsait istəyən Həsən bəy Zərdabi, ailəsini sabun bişirməklə dolandıran Sabir, əlyazmalarını sobaya atıb oğlanlarının otağını isitməyə çalışan Mirzə Cəlil və Səməd Mənsurun özü:

Nə cibimdə para, nə evdə çörək var, ey həkim,
Nəbzimi bihudə sıxma, çəkmə azar, ey həkim.
Ət yemək pəhrizini əmr etmə ki, bazarda
Nə qədər axtarsa ət, tapmaz xiridar, ey həkim.
Qəlbini sıxma deyirsən, ac qalıbdır külfətim,
Olmuşam mən onların fikriylə bimar, ey həkim...

Rədifiylə Fizuli qəzəliylə bağlı bu şeiri Nizami Cəfərov belə qiymətləndirir ki, bu «bir tərəfdən Fizuli sənətinə ehtiramdırsa, digər tərəfdən artıq Sabir satira məktəbinə mənsubdur».

Amma şeir müraciətiylə (ey həkim!) Fizulini xatırlatsa da, mövzusu etibariylə Molla Pənah Vaqifi yada salır.

Bayram oldu, heç bilmirəm neyləyim,
Bişim evdə dolu çuval da yoxdur.
Düyüylə yağ hamı çoxdan tükənmiş,
Ət heç ələ düşməz, motal da yoxdur.

Əgər Nizami «Həpsi rəngdir» şeirinin M.P.Vaqifin «Görmədim» müxəmməsiylə müqayisəsini ümumi fəlsəfi müstəvidə aparırsa, iki şairin bu kasıbçılıqdan şikayət misraları bir-biriylə məişət məhrumiyyətləri cəhətdən bağlanır.

Ümumiyyətlə, Səməd Mənsur poeziyasında ən böyük ustadı saydığı Fizulidən üzü bəri Molla Pənah Vaqif və aşıq şeirindən keçərək Sabir satirasına gələn bir yolu izləyə bilirik. Doğrudur, Sabirin yalnız satirasından yox, «Ol qədər cövr et mənə, ah etmək imkan olmasın» qəzəlinin ruhunu Mənsurun məşhur «Naz et» şeirində də duyuruq.

Ədəbiyyat tariximizə ümumi baxış atan alim qeyd edir ki, «ümumiyyətlə, dil, özünün bütün plastik imkanları ilə Şərq poeziyasının əsas qəhrəmanıdır. Xüsusilə türk dili... Çünki türk dilinin sərəncamında Şərqin üç dilinin (və təfəkkürünün) imkanları var: türkcənin, farscanın və ərəbcənin».

Bu fikrə bir əlavə etmək istərdim. Üç dildə yazan Nəsiminin, Fizulinin şeirlərindəki fars izafətləri, ərəb kəlmələri təbiidir, çünki öz dilimizdə yaranan yazılı şeirimiz (şifahi ədəbiyyat və Yunis İmrə xaric) bu iki dilin təsirindən və cazibəsindən yavaş-yavaş, addım-addım xilas olurdu. İkinci cəhət isə o idi ki, dövrün yazıları üç dili mükəm-

məl bilən oxucuya hesablanırdı. XIX və özəlliklə XX əsrdə fars və ərəb dillərini bilənlər barmaqla sayılan zaman Hadinin dili kimi Səməd Mənsurun da müəyyən əsərləri oxucu üçün anlaşılmaz qalır. Tutalım

«Bir güşədə gör məcmeyi-mərdani-həqiqət.
Üşşaqı-fəlakətzədə, üftadeyi zillət,
Vaqif hamı öz fəlsəfeyi-məni və surət,
Səy et verələr bari-hüzura sənə rüsxət»

– kimi misralardan müasir oxucu nə anlaya bilər? Amma satiralarını Səməd Mənsur hər kəsə anlaşıqlı təmiz Azəri türkcəsində yazırdı və acı gülüş hədəfi üç müxtəlif dönəm, üç siyasi rejim idi: Çar imperiyası – müstəmləkəlik dövrü, 1918-1920-ci illərdə müstəqil Cümhuriyyətimiz və Şura dövrü. Səməd Mənsur da, Sabir kimi, Səhhət, Hadi kimi, Cavid, Şaiq, Müznib, Cavad kimi milli ruhlu şair idi, amma o da qəribədir ki, tərkidünyalıq, küskünlük, bədbinlik dalğasında köklənmiş «Həpsi rəngdir» şeirini məhz 1919-cu ildə – mili müstəqilliyimizə qovuşduğumuz dövrdə yazıb.

Çox vaxt rejimin daşıyıcıları başa düşmək istəmirlər ki, əsl sənətkar həmişə NARAZIDIR. Lap ürəyincə olan quruluşda yaşasa belə, arzuladığı ictimai amallar həyata keçsə belə ümumi, metafizik «anlamaq dərdi» hər həqiqi sənətkarın əbədi həmdəmidir, çünki dünya axır əlbət ölüm-itim dünyasıdır, ayrılıq və kədər dünyasıdır, fanidir, gəlimli gedimlidir. Bir də ki:

Müstəbidlik bəşərin mayeyi-zatində imiş...

Odur ki, bütün dinlərin cənnət xülyaları kimi Kommunizmin bərabərlik və xoşbəxtlik vədləri də boş və puçdur. Bu fikri Səməd Mənsür minillik poeziyamızın, bəlkə də, ən ümidsiz beytiylə ifadə edib:

Derlər: «Ərzi-bəşər axır olacaqdır cənnət,
Böylə bir zənni –xəta sizdə də var, bizdə də var».

Bəs beləysə çıxış yolu nədədir? Bəlkə:

Bir zaman vardı ki, mən həmfikir idim zöhhad ilə,
Sonra gördüm fərqi yoxmuş zahidin cəllad ilə,
Dedim, əyyaş olmalı, ta gün keçə mötad il,.
Cümlə eyşü nuşi gördüm müxtəlif fəryad ilə,
Anladım ki zövqü təqva, eyşü işrət rəngdir.

...Və ona görə də...

İndi ki mümkün deyil aləmdə olmaq kamiyab
Ey gözün qurbanı, saqi, ver genə sağər şərab...

Bəlkə elə sovet dövründə arabir Leninə,Stalinə, partiyaya misralar həsr etsə də yaradıcılığıyla, həyat tərziylə bir rind ömrü yaşamış Əli Ağa Vahidçün də bu bir xilas yolu olmuşdur.

Bir insan kimi Səməd Mənsurun bir üstün cəhəti də tək sələflərinə yox, çağdaş həmkarlarına da hörmətlə, sevgiylə yanaşmasıdır, Həsən bəy Zərdabinin hünərindən, Nəcəf bəy Vəzirovun fəaliyyətinin səmərəsindən, M.C.Məmmədquluzadənin «Molla Nəsrəddin»indən qürurla yazan

Səməd Mənsur ilk operamızın müəllifi Üzeyir bəyin xidmətlərini də «min təşəkkürlə» qeyd edir. «Bacıoğlunun dayıya ərizəsi» və «Dayının bacıoğluna cavabı» şeirləri də dolayısıyla Nərimanovun qarşılaşdığı problemlərə satirik üslubda sataşsa da, Nərimanın özünü, şəxsiyyətini yüksək dəyərləndirən şeir də yazıb.

Vaxtilə Abbas Səhhət dostu Sabirin ölümündən sonra onun əsərlərini «Hophopnamə»də topladığı kimi, Əliabbas Müznib də Səməd Mənsurun hələ sağlığında şeirlərini toplamışdı və bu da ədəbiyyat adamları arasında nadir olan təmənnasızlığın örnək olacaq faktlarındandır. Yəqin özü də məhz belə təbiətli şəxs olduğu üçün Səməd Mənsurun yazıçılar arasında nifaqı damğalayan şeiri ibrətamizdir.

Söyüşün, ey nəciblər, söyüşün,
Fəxri-millət ədiblər, söyüşün.
Söyüşün, kəşf ola nəcabətiniz,
Söyüşün, artıq ola hörmətiniz.
Çünki yoxdur bir özgə sənətiniz,
Həcv satmaq olub ticarətiniz.
Pul qazanmaq olarsa niyyətini,z
Gərək hökman ola rəqabətiniz.
Yazılar aləmin bazar eyləyin,
Ərsəni bir-birinə dar eyləyin.
Bir birin səhnədən kənar eyləyin,
Nə xəcalat çəkin, nə ar eyləyin.
Söyüşün, ey nəciblər, söyüşün,
Fəxri-millət ədiblər, söyüşün!

Çox müasir səslənir, deyilmi?

Bütün bədbin ovqatlarına baxmayaraq Səməd Mənsur gələcəyə inamını da itirmirdi və bu inam, bu ümid «Oğlum Əhməd Tofiqə nəsihətim» şeirində parlaq ifadə olunub (Əhməd Tofiq -T.Kazımovun tam adıdır):

Bizim də ölkədə Əhməd, gələr bir oylə zaman,
Hüquqa malik olar millət, gülür vətənim.
Hüquq-hüquq nə gözəl şey! Yetişməz isə əlim,
Mən ölmüş olsam, unutma hüquqa həsrətimi.
Qızıl qüyuddə mənən çəkən əziyyətimi.
O gün məzarıma qoş! Sanma bir ovuc xakəm,
O gün vürüdünü gözlər o xaki-qəmnakım.
Qoşub məzarıma ver, Əhmədim, bəşarətini,
Duyar qübarım inan giryeyi-səadətimi.

Neçə il bundan qabaq şairə Anaxanım Əlibəylini dəfn edərkən onun qazılmış qəbrinin yanında başqa baxımsız məzarı gördüm. Sinə daşında «Səməd Mənsur Kazımzadə» yazılmışdı.

Bu gün ədəbiyyat tariximizə şərəflə qayıdan Səməd Mənsurun bir gün qəbri də səliqəyə salınar, inşallah...

Nizami Cəfərovun vaxtında yazlımış önəmli kitabıyla bağlı həm bu tədqiqat haqqında, həm də Səməd Mənsur haqqında düşüncələrimi oxucularla bölüşmək istədim.

ANAR
18 fevral 2017

Ön söz

Azərbaycan ədəbiyyatı, xüsusilə poeziyası tarixində sözünə ən çox (və ən uzun müddət) yasaq qoyulan bir söz ustası varsa, o da Səməd Mənsur olmuşdur.

Çünki neyçün?..

Əvvəla, Söz demişdi... Qorxmadan, çəkinmədən... Ürəkdən, vicdanla... İkincisi isə, onun dediyi söz dərhal (və bütün enerjisi ilə) cəmiyyətə, milli şüura təsir edərək canlı ovqat, mübariz əhvali-ruhiyyə yaratmışdı...

XX əsrin əvvəlləri Azərbaycan xalqının həyatına (və tarixinə!) həm iqtisadi, həm ictimai-siyasi, həm də mədəni intibah dövrü olaraq daxil oldu ki, bu dövr biri digərilə bilavasitə bağlı iki mühüm əlamətlə cəsiyyələnir: onlardan birincisi, milli özünüdərk (və özünütəsdiq) hərəkatının güclənib kütləvi miqyas alması, ikincisi isə, güclü milli şəxsiyyətlərin əvvəlki dövrlərlə müqayisə olunmayacaq miqyasda meydana çıxaraq mənsub olduqları xalqın iradəsini, maraqlarını öz fəaliyyətlərində (mübarizələrində!) bilavasitə ifadə etmələri idi ki, bir tərəfdən, tarix yaradır, digər tərəfdən, yaratdıqları (və yaşadıqları) tarixi yazırdılar... Həmin şəxsiyyətlərin fəaliyyətləri (mübarizələri!) heç bir sərhəd, məhdudiyyət tanımırdı, ilin, ayın, hətta günün tələbləri nədən ibarət idisə, o işdən yapışır, ideallarının arxasınca günbəgün, saatbasaat gedirdilər... Çünki onlar idealçı (idealist yox!) idilər. Və Səməd Hacı Əhməd oğlu Kazımov (1879-1927) da dövrünün belə şəxsiyyətlərindən idi.

Onlar o qədər də sadəlövh deyildilər; həm Şərqin, həm də Qərbin mədəni dəyərlərini mənimsəmiş, bəşər tarixinin fəlsəfəsinə dövrün inqilabi polemikaları prosesində az-çox aşina olmuşdular, dünyadan gedəndən sonra da böyük əməllərinə, insanlığa təmənnasız xidmətlərinə görə əbədi yaşayacaqlarına inanırdılar...

Hələlik bir soyuq evdə yataram ac-yalavac,
Bilirəm, qəmlərimə etməyəcək kimsə əlac,
Ruhi-ülvimi qoy etsin hələlik qəm tarac,
Ölərəm, sonra adım söylənər, inşallah!
Torpaq içrə olaram bəxtəvər, inşallah!

Bu misraların müəllifi ömrünün sonlarında «Övladlarıma vəsiyyətlərim»də yazmışdı:

«Çox cavan ikən, on beş-on altı yaşlarımdan kəndi zəhmətlərim sayəsində yaşamağa başladım. Savadsız, məlumatsız meydana atıldım. Təbii zəkavətə malik olduğumdan hər şeyi tədqiq etmək, hər şeyi anlamaq təbii xasiyyətim oldu... Daima yazılar ilə, kitablar ilə uğraşardım. Bir məsələ barəsində bu mütəfəkkirin fikri və nəzəriyyəsini digər bir mütəfəkkirin fikri və nəzəriyyəsi ilə müqayisə etmək vasitəsilə get-gedə özüm də bir müəyyən fikir və nəzəriyyə sahibi oldum».

...Səməd Mənsurun yaradıcılığı çoxşaxəli olsa da, o, Azərbaycan ədəbiyyatının tarixində, ilk növbədə, şair kimi məşhurdur. Sənətkarlıqla qələmə alınmış müxtəlif mövzulu şeirləri həm yaşadığı dövrün nüfuzlu mətbuat orqanlarında («İqbal» və «Bəsirət» qəzetləri, «Tuti», «Şeypur» və «Molla Nəsrəddin» jurnalları...) təxminən

iyirmi il ərzində ardıcıl çap edilmiş, həm də ədəbi mühitdə – ziyalılar arasında şifahi olaraq geniş yayılmışdı.

Maraqlıdır ki, kifayət qədər imkanlı ailədə dünyaya gələn, özünün də müəyyən imkanları (hətta bir müddət «Turan» adlı xüsusi mətbəəsi) olan Səməd Mənsurun sağlığında heç bir kitabı nəşr edilməmişdir.

Şairin şeirlərini 1926-cı ildə Əlabbas Müznib toplayıb çapa hazırlasa da, bu təşəbbüs, əlbəttə, siyasi-ideoloji maneələr ucbatından nəticəsiz qalmış, Səməd Mənsurun poeziyası barədəki təsəvvürlər on illərlə yalnız yaddaşdan yaddaşa keçən bir neçə məşhur şeir əsasında formalaşmışdı ki, onlardan Azərbaycan poeziyası tarixinin «qızıl fond»una düşən «Həpsi rəngdir», «Mənə naz et» və «Sizdə də var, bizdə də var»ı ayrıca qeyd etmək lazımdır.

20-ci, 30-cu illərdə repressiyaya məruz qalmış ədəbiyyat 50-ci illərin ortalarından sonra tədricən işıq üzü görməyə, araşdırılmağa və layiq olduğu qiymətini almağa başlayır. Ancaq Səməd Məsur yenə də «diqqətdən kənarda» qalır. Tədqiqatçı Əliheydər Hüseynovun 70-ci illərdə topladığı şeirlər də nədənsə çap olunmur.

1980-ci illərdə çıxan «Deyilən söz yadigardır» (tərtib edəni: Cəfər Rəmzi İsmayılzadə), «Molla Nəsrəddinçi şairlər» (tərtib edənlər: Abbas Zamanov, Kamran Əliyev) və «Azərbaycan qəzəlləri» (tərtib edəni: Məmməd Nuri) antologiyalarına şairin yaradıcılığından da bir sıra nümunələr daxil edilir ki, bunlardan da bir neçə il sonra – 1993-cü ildə xalq yazıçısı Anar, Səməd Mənsurun «Həpsi rəngdir» adlı ilk kitabını nəşr etdirir.

Əlabbas Müznibin toplayıb tərtib etdiyi əlyazması isə yalnız 2003-cü ildə işıq üzü görmüşdür (nəşrə hazırlayanlar: Sona Xəyal, Mustafa Mailoğlu).

Şairin 2006-cı ildə «Seçilmiş əsərləri» (tərtib edənlər: Əliheydər Hüseynov, Təranə Hüseynova və Abbas Abdullayev), 2008-ci ildə isə «Əsərlər»i (tərtib edən: Sona Xəyal) nəşr olunmuşdur.

Səməd Mənsurun, demək olar ki, bütün araşdırıcıları bu fikirdədirlər ki, mövcud nəşrlər onun yaradıcılığını tam əhatə etmir... Əlbəttə, hər bir böyük şairin indiyədək məlum olmayan bircə şeirinin də tapılması əhəmiyyətlidir, ancaq Səməd Mənsurun yüzdən artıq məlum şeirləri onun yüksək poetik istedad səviyyəsi, zəngin (və fəlsəfi) dünyagörüşü barədə, heç şübhəsiz, aydın təsəvvür yaradır.

Şairin ümumiyyətlə yaradıcılığı, xüsusilə poeziyası müstəqillik illərində müəyyən qədər araşdırılmış, bir neçə kitab, bir sıra məqalələr yazılıb nəşr etdirilmişdir. Lakin bunlar bütün sovet dövrü boyu adı yasaq olunmuş böyük bir şair-mütəfəkkirin milli ədəbi-ictimai tarixdəki tapdanmış hüquqlarının gec də olsa bərpası baxımından hələ başlanğıc sayıla bilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Səməd Mənsurun xatirəsinin ədəbiləşdirilməsi haqqında» 27 avqust 2008-ci il tarixli sərəncamı bir daha göstərdi ki, müstəqil Azərbaycan dövləti xalqın mədəni-mənəvi irsinə xüsusi dəyər verir. Və o xalq xoşbəxtdir ki, öz tarixi keçmişini (və şəxsiyyətlərini) heç zaman unutmur, ona (və onlara) öz müasir varlığının, eləcə də gələcəyinin üzvi tərkib hissəsi kimi baxır.

Mövzuca rəngarəng, ideyalı, məsləkli poeziya

Müəyyən tərəddüdləri, hadisələri dərk edib dəyərləndirməkdə, müasirləri kimi, yanılmaları ola bilərdi, lakin Səməd Mənsur bu dünyaya ideyalı, məsləkli (və mütəfəkkir) insan (və şair) olaraq gəlmişdi. Bu, onun yalnız taleyi yox, həm də missiyası idi...

«Övladlarıma vəsiyyətlərim»də yazırdı:

«Övladlarım, pak olun, heç vaxt heç bir şeyə satılmayan vicdanıma and olsun ki, dünyada ən sevgili bir şeyim varsa, sizsiniz və rəfiqəmdir. Ola bilər ki, məndən zahiri mehribanlıq az görmüşsünüz, fəqət bu, ədəmi-məhəbbətə dəlalət etməz. Vicdanımın pak olduğundan dolayı bu dünyada sərvət və miknət sahibi olamadım... Sanmayın ki, sərvət və miknətsizliyimə təəssüf edirəm... Yox! Pak vicdan hər bir miknətdən qiymətlidir».

XX əsrin əvvəlləri Azərbaycan ziyalılığı tarixində bu cür şəxsiyyətlərin sayı ona görə çoxdur ki, «xalq» «millət»ə çevrilirdi – tarixi, mənəviyyatı, ideologiyası... və dili ilə!..

Səməd Mənsur poeziyasının ən mühüm məziyyətlərindən biri onun, dövrün bütün böyük söz ustaları kimi, iqtisadi, ictimai-siyasi, mədəni-mənəvi aktuallıq kəsb edən ən müxtəlif mövzulara müraciət eləməsi, milləti, cəmiyyəti narahat edən problemlər üzərində dayanması, onların vaxtında həlli üçün yüksək vətəndaş məsuliyyəti ilə düzgün çıxış yolları arayıb axtarmasıdır.

AZ-I
4/2975

AMEA Mərkəzi Elmi Kitabxana və İnformasiya Resursları Mərkəzi
«___»_____20__il

Şairin yaradıcılığının ilk tədqiqatçılarından Nazif Ələkbərli yazır:

«Səməd Mənsur nədən yazırdı? sualına belə bir sualla cavab vermək olar: S.Mənsur nədən yazmırdı?.. Onun şeirlərində ölkələr, şəhərlər, hadisələr və şəxsiyyətlər sadalanır, bir çoxuna münasibət bildirilir... Bu sırada xalqın vəziyyəti də var, dünyanın vəziyyəti də. Dövlət başçıları da var, ziyalılar da. Siniflər də var, müxtəlif zümrələr də. Həyatdan nəşə duyanlar da var, ağrı-acı çəkənlər də...»

Nazif Ələkbərlinin aşağıdakı sözləri isə şairin dünyagörüşünü, idrak metodologiyasını, üslubunu müəyyənləşdirir:

«..Sözə müraciətdə tənqid və təsdiq, inkar və iqrar, fikir və hisiyyat, zəka və emosiya paralel iştirak edir.

Bir çox şeirləri göstərir ki, şair ictimai və fəlsəfi fikir tarixinə, elmin müxtəlif sahələrinə, xüsusən tarix və coğrafiyaya yaxşı bələd olmuşdur... Şeirlərində bir neçə siyasi əqidənin (sosialist, milli demokratik, demokratik) əlamətləri izlənilir. Eyni zamanda onun tarixi baxımdan sufiməsləк şairlərlə maraqlandığını, bəzi sufi ideyaları ilə tanış olduğunu təsdiq etmək mümkündür».

Və beləliklə aydın olur ki, Səməd Mənsurun poeziyanı səciyyələndirən bir cəhət mövzu zənginliyi, rənagarəngliyidirsə, ikinci cəhət dünyagörüşü genişliyi, dövrün təbiətindən irəli gələn fəlsəfi-ideoloji analitizm, idrak çevikliyidir.

Və nə qədər paradoksaldır (əslində isə, təbiidir) ki, Səməd Mənsur yaradıcılığını həm yüksəldən, həm də sovet dövründə onu qəti şəkildə yasaq etdirən bu cəhətlər olmuşdur.

Ümumiyyətlə, XX əsr Azərbaycan ədəbiyyatının heç bir nümayəndəsi sovet dövründə tarixi xidmətləri müqabilində dəyərləndirilməmişdi. Və dəyərləndirilə bilməzdi... Ən çox qəbul edilənlər Sabir, Mirzə Cəlil, Məmməd Səid Ordubadi, Abdulla Şaiq olmuşlar ki, onların da hansı «tekstoloji» redaktələrdən keçdikləri mütəxəssislərə yaxşı məlumdur... Sovet ədəbiyyatşünaslığı «tənqidi realizm»i qəbul etmişdi, ancaq o şərtlə ki, bu tənqid (və onun realizmi) sovetləşmədən əvvəlki illərlə yekunlaşmalı, bir-iki gün də bu tərəfə keçməməli idi... Və həmin ədəbiyyatşünaslıq (əslində, ideologiya!) dünya ədəbi-estetik fikri tarixində analoqu olmayan bir kəşf də eləmiş, romantizmi mütərəqqi və mürtəce olmaqla iki yerə bölmüş, ancaq 30-cu illərdə hər iki cərəyana mənsub nümayəndələrlə, demək olar ki, eyni dərəcədə haqq-hesab çəkmişdi...

Səməd Mənsurun poeziyasının çox müxtəlif mövzulardan ibarət olduğunu demək nə qədər asandırsa, onun şeirlərini həmin mövzulara bölüb təhlil eləmək o qədər çətindir. Hər şeydən əvvəl ona görə ki, eyni bir şeirində həm lirika var, həm maarifçilik, həm satirik eyham, həm də fəlsəfi ümumiləşdirmələr... Odur ki, mövzular üzrə bölgü xeyli dərəcədə şərti xarakter daşıyır, onsuz isə keçinmək olmur.

Hər hansı şairin yaradıcılığından danışarkən ilk müraciət olunan mövzu, şübhəsiz ki, məhəbbətdir... Səməd Mənsurun dahi sələfi (və Ustadı) Füzuli yazırdı:

Məndən, Füzuli, istəmə əşari-mədhü zəmm,
Mən aşiqəm, həmişə sözüm aşiqanədir.

Səməd Mənsur məhəbbət şeirləri yazmaqdan (yəni aşiqlikdən!) qaça bilməzdi və heç qaçmadı da, ancaq Ustaddan fərqli olaraq «əşari-mədhü zəmm»də deməyə məcbur idi. Çünki dövr, zaman, millətin taleyi bunu tələb edirdi: nə isə tərifləmməli, nə isə məzəmmət olunmalı idi... Elmin, maarifin, mədəniyyətin təəssübü çəkilməli, elmsizlik, maarifsizlik, mədəniyyətsizlik isə kəskin tənqidə məruz qalmalı, milli tərəqqinin qarşısına çıxan hər cür maneələr aşılmalı idi...

Əyyami-bahar oldu, gülüstan çü ruhi-yar,
Səhra üzü tər lalə, çəmən səhnəsi gülzar,
Təcili-bəşaşətlə axar hər tərəf ənhar,
Nəğəmati-həzaran eyləyir xüftəni bidar,
Tez get o fəraya, eyləmə qəfləti, zinhar.

Əvvəl dər-meyxanədə qıl bari-meyəssər,
Təhtiri-zəmir etməyə iç bir dolu sağər,
Ta kim olasan zahiri xoş, batini əthər,
Get sonra məşamın elə güllərlə müəttər,
Badi-səhəri kəndimə açsın dəri-əsrar.

Bir guşədə gör məcmeyi-mərdani-həqiqət,
Üşşaqi-fəlakətzədə, üftadeyi-zillət,
Vaqif hamı öz fəlsəfeyi-məni və surət,
Səy et verələr bari-hüzura sənə rüxsət,
Gör onda «nədir eşq, nədir mərd, nədir kar».

...Ey sahibi-əql, aşiqi az eylə məzəmmət,
Çox gülməlidir, tifl edə ustadə nəsihət,
Hər kimsəyə kim şahidi-məna açа surət,

Vazehdü, edər başqa əvalimdə səyahət,
Gəzmək bu əvalimdə olur əqlilə düşvar.

...Üşşaqdır əsrari-nihan gəncinə gəncur,
Üşşaqa əyandır o ki olmuş sənə məstur,
Etmək diləsən dil evini eşq ilə məmur,
Xaki-dəri-üşşaqə fəda can elə, Mənsur,
Məxrubeyi-qəflət könülə eşq ola memar.

Səməd Mənsurun fitrətən mütəfəkkir təbiəti onu hadisələrin dərininə, mahiyyətinə çəkir, qeyri-adi fəlsəfi ümumiləşdirmələrə sövq edirdi. Çünki o, Aşiq-Mütəfəkkir idi!.. Aşiqin, əsasən, bir hədəfi olur, Mütəfəkkirin isə hədsiz-hüdudsuz!..

Cüz!.. Və Küll!..

Şair «Övladlarıma vəsiyyətlərim»də yazır:

«Bu, tarixi heç təyin edilməyən əski dünyaya milyard-milyard insanlar gəlib yaşamış və ölmüşlərdir. Bunların içində milyon-milyon canilər, xainlər, qatillər, oğrular yaşamışlardır. Eyni zamanda milyonlar ilə də mələk xislətli, pak vicdanlı insanlar da bulunmuşlardır. İndi baxsanız, dünyada nam-nişan qalmışsa, həpsi vicdanlı taqımın içindən çıxan ərbabi-hünərdən qalmışdır. Milyonlarla yaşamış alçaqlardan isə heç bir nişan aləmdə qalmamışdır».

Bu sözlər şairin öz həyatını həm də bir cəmiyyət (insan) filosofu kimi yaşamış olduğunu göstərir.

Və əlavə edir:

«Bu zəmanə alçaqlıq zamanı, ayaqöpənlər, vicdansızlar meydanıdır. Bu zəmanədə hər kəs vicdanını sat-

maqla yaşayır. Vicdanlar alqı-satqı malı olmuşdur. Üzlərdən həyalar mədum olmuşlar. İnsaf və mürüvvətdən əsər qalmamışdır. Lakin mən, atanız vicdanımı hifz etdim. Ac da qaldım, təməllüq etmədim. Kimsənin qabağında kiçilmədim».

Səməd Mənsurun (və onun dövrdaşlarının, demək olar ki, əksəriyyətinin) təsəvvüründə qələm qədər kəsərli silah, sözdən böyük nemət yox idi...

Və imkan düşən kimi Cavidin, Cavadın əvvəl özlərini, sonra sözlərini həbs etdilər. Mənsurun özü otuzlara qalmadığından sözü məhbəsə atıldı.

Və onun söz məhbusluğu mənsub olduğu millətin istiqlalına qədər çəkdi.

«Qəzəl de ki»...

Azərbaycan poeziyası tarixində iki janr yalnız xüsusi populyarlığı ilə fərqlənməmiş, həm də bu janrların adları milli poeziyanın iki üslubi istiqamətinin simvoluna çevrilmişdir ki, biri qəzəl, digəri qoşmadır... Qoşma milli poetik təfəkkürün «arxaika»sından gəlirdi, qəzəl isə orta əsrlər müsəlman mədəniyyətinin yeniliyi idi.

Qəzəl yaradıcılığı XII-XIII əsrlərdən etibarən Azərbaycanda elə bir vüsət aldı ki, orta əsrlərin sonu yeni dövrün əvvəllərinə qədər bədii şüura hökm etdi. XVIII əsrdə Vaqif, XIX əsrdə isə Zakir bu hökmə tabe olmayıb qoşmanın orta əsrlər boyu «pozulmuş» hüququnu bərpa etdilər. Lakin Füzuli nüfuzunu sındırmaq elə də asan deyildi, Seyid Əzim Şirvaninin şəxsində yenidən zühur edən qəzəl yaradıcılığını XIX əsrin sonu XX əsrin əvvəllərində bir sıra istedadlı sənətkarlar yeni tarixi şəraitin ideya-estetik tələblərinə uyğun olaraq davam etdirdilər ki, onlardan biri də Səməd Mənsur idi.

Əlabbas Müznib yazır:

«Təbi-şeirə malik olduğundan gənc ikən sair şairlərə qoşularaq qəzəl yazmağa başlamışdır. Lakin qəzəllərinin bütün üsul-üslubunda Ağakərim Salik təsiri üstün olduğu aydın surətdə görünür. Hətta onun Salikin şagirdi olması tam mənasilə hökm edilir».

Əlbəttə, Səməd Mənsur, sözün geniş mənasında, nə Salikin, nə də hətta Seyid Əzimin şagirdi ola bilməzdi; onun əsas ustadı dahi Füzuli idi. O Füzuli ki, vaxtilə məsləhət görmüşdü:

Qəzəldir səfabəxşi-əhli-nəzər,
Qəzəldir güli-bustani-hünər.

Qəzəl de ki, məşhuri-dövran ola,
Oxumaq da, yazmaq da asan ola...

Səməd Mənsur neçə il neçə qəzəl yazıb, bilmirik; ancaq onu bilirik ki, istedadla, məharətlə yazıb:

Tiri-qəmzən dili-zarımla tutub ünsü əlaiq,
Əksi-hikmətdir ol şey ki, ola eşqə müvafiq.

Çeşmi-məstinlə verən mərdümünə oldu müqəllid,
Əqli-nabaliğimiz kəsb edə ta rəmzi-dəqaiq.

Dili-üşşaqi ki sədparə qıla tiği-məlamət,
Paralar nuru, əcəbdirmi ola göylərə faiq.

Səməd Mənsur, bir tərəfdən, dahi ustadın məsləhətinə əməl edib, qəzəl yazmışdı; digər tərəfdən isə, əməl etməyib, asan yox, «çətin» yazmışdı. Çünki bu dili XVI əsrdə olduğu kimi XX əsrin əvvəllərində də anlayan çox deyildi:

Mərəzi-eşqə müalic olu, qabilmi təbabət,
Tiri-eşqin hədəfi olmağa gər sinədü şaiq.

Tərki-tən qıl, olasan kişvəri-dildarə mühacir,
Şəmü pərvanə hədisin oxu, ey aşiqi-sadiq.

Qabil olmazdı mühim can verə əmvata Məsiha,
Verməsəydi ləbin ecazı belə əmrə rizalıq.

Bizə hicran odu, əğyarə vüsal olsa da qismət,
Min təşəkkür ki, bu müştaqın olub cövrünə layiq.

Məsələ yalnız dilin, ifadə tərzinin qəlizliyində deyil, məzmun-mətləb də xeyli mücərrəddir. Və gənc şairin məqsədi özünü, öz hisslərini ifadə etməkdən çox, məharətini göstərməkdən, ustadlarla yarışa girməkdən və tezliklə onların səviyyəsinə yüksəlməkdən ibarətdir:

Saqi, əksin mərdümi-çeşmimə gər göstərsə cam,
Badəxar olmaz meyi-təlxindən hərgiz təlxnam.

Bilmədin, könlüm ki, tirəndaz kimdir dəhrdə,
Lacərəm zəxmindən, eylərsən fəğan hər sübhü şam.

Əndəlibi-zarın əfğanı gülə qılmaz əsər,
Ol nəzakətzat gülzar içrə olmuş xarə ram.

Səməd Mənsurun istedadı, üslubu klassik qəzəl şeirinin ənənəvi funksional tələblərinə cavab verir, bununla belə həmin istedad və üslub ənənəvi poetik standartları aşıb öz modelini, stilizasiyalarını və ya variasiyalarını yarada bilmir:

Səbr qıl, Mənsur, kim sabir tapar rahi-nicat,
Vəzi-dövran qalmamış yeksan, həp qalmaz müdam.

Şairin dahi sələfinə məhəbbəti özünü yalnız qəzəllərində yox, ona təxmişlərində də bilavasitə nümayiş etdirir:

Gəl, gəl, ey lalərüxüm, bülbüli-şirinsüxənim,
Ömr bağında xəzan oldu gülüm, yasəmənim,
Çak-çak oldu qəza tiği ilə bəs ki tənim;
«Pənbeyi-dağı-cünun içrə nihandır bədənim,
Diri olduqca libasım budur, ölsəm kəfənim».

...Demə Mənsurə ki, həp nalədürür göftarın,
Nalədən qeyri nə göftarı olar bimarın,
Nə qədər yetsə mənə sərzənişi əğyarın;
«Edəməm tərk, Füzuli, səri-kuyin yarın,
Vətənimdir, vətənimdir, vətənimdir, vətənim».

Füzulinin məşhur «Söz» qəzəlinə cavab-nəzirə olaraq qələmə alınan aşağıdakı qəzəldə isə müəllifin ideya-məzmun axtarışlarını hiss etməmək mümkün deyil:

...Natiq öz nitqində izhar eyləyər idrakını,
Çünki hissü qəlb təşxisindədir meyar söz.

...Söz fununda məharətsiz gərək etsin sükut,
Həm müxərrəbdir könül mülkünə, həm memar söz.

Söz eşit, Mənsur, ta təkmil edə idrakını,
Zərreyi-xaki qılar əlmasi-qiymətdar söz.

Və klassik standartlardakı bu yenilik Səməd Mənsurun digər bir qəzəlində özünü daha aydın göstərir:

Ehrazi-məqamat üçün alat qələmdir,
Həm aləti-təhsili-kəmalat qələmdir.

Övraqi-vücud üzrə çəkən nəqşeyi-məna,
Nəqqaşi-dili-əhli xəyalət qələmdir.

Əbnayi-bəşər feyzi-qələmdən olu faiz,
Bəxş eyləyən afaqə füyüzat qələmdir.

Göründüyü kimi, şair qələmin qüdrətini orta əsrlərə məxsus mücərrəd obrazlarla deyil, maarif və mədəniyyətin geniş vüsət aldığı, insanın, cəmiyyətin ruhuna «feyzlər» verdiyi bir dövrün «terminologiya»sı ilə tərənnüm edir. Eyni zamanda qələmin gücünün, ziyasının İlahidən gəldiyini zikr etməklə, yeni dövrün ictimai-intellektual ovqatına o qədər uyğun olmasa da, onu müqəddəsləşdirir. Və beləliklə, qələm (maarif, mədəniyyət!..) barədəki təsəvvürün ənənəsi ilə bu günü arasında mükəmməl bir assosiasiya yaradır:

Təqrir qılan dideyi-nasuti olursa,
Gər məskən ona çeşmeyi-zülmat qələmdir.

Bişübhə, qələm şəşəyi-qəlbi-bəşərdir,
İnsanlar üçün fəxri-mübahat qələmdir.

Çün tərbiyeyi-növi-bəşərdir ona möhtac,
Vazeh bu ki, ümmül-ədəbiyyat qələmdir.

Ayati-ilahidən imiş xilqəti, həqqa,
Kim, qüdrəti-xəllaq üçün isbat qələmdir.

«Qələmdir»dən bir neçə il sonra şair satirik məzmunlu, lakin ruhunda gizli bir lirik romantika da olan «Qələmim» qəzəlini yazır:

Sinəm atəşkədə, bir parça şərərdir qələmim!
Mənbəyi-büxl ürəyim, aləti-şərdir qələmim!

Təkcə bir şairi-bivahiməvü pürhünərəm,
Min oxa, süngüyə, şəmşirə dəgərdir qələmim.

Kəndimi «xadimi-millət» deyə öysəm, yaraşar,
Rəhnümayi-rəhi-əbnayi-bəşərdir qələmim.

El bilir mən nəyəm artıq, nə üçün gizlədəyim,
Dərdisər ümmət üçün, xalqa zərərdir qələmim.

...Al oxu şeirimi, yansın cigərin, eylə həsəd,
Söz deyil yazdığı ki, dürrü gühərdir qələmim!

Səməd Mənsurun əlində qələm, göründüyü kimi, ən klassik poetik standartları belə təkrar eləmək üçün deyildi. Əlinə o zaman qələm alırdı ki, həmin standartlarla nə isə yeni bir söz desin...

Və Füzuli sənətinə ehtiramın bir təzahürü də ona nəzirələridir:

Nə cibimdə parə, nə evdə çörək var, ey həkim,
Nəbzimi bihudə sıxma, çəkmə azar, ey həkim.

Ət yemək pəhrizini əmr etmə kim, bazarda
Hər qədər axtarsa ət, tapmaz xridar, ey həkim.

...Qəlbini sıxma deyirsən, ac qalıbdır külfətim,
Olmuşam mən onların fikrilə bimar, ey həkim...

Yaxud:

Əhli-fəqrəm, ol səbəb on rublə əksikdir pulum,
Az da olsa, rəhm elə, al, etmə israr, ey həkim.

On manatçın eyləmək bimarını evdən kənar,
Söylə caizmi sənə bir böylə rəftar, ey həkim?

Hansı bir millətdə doktor baxmaz öz fəqr əhlinə,
Qeyrə bax, gəl qeyrətə, həm eylə bir ar, ey həkim...

Lakin nəzərə almaq lazımdır ki, bu nəzirələr, bir tərəfdən, Füzuli sənətinə ehtiramdırsa, digər tərəfdən, artıq Sabir satira məktəbinə mənsubluqdur.

Sabir Füzulidən gəlmiş, yeni üslub yolu açmışdı...

Səməd Mənsur da böyük ədəbiyyata o yolla gəldi... Və həmin yol onun öz üslubunu formalaşdırdı, məram-məqsədini ifadə etmək üçün özünəməxsus poetexnologiyasını müəyyənləşdirdi, dilini xalq üçün son dərəcə anlaşıqlı etdi.

«Mənə naz et»...

Azərbaycan poeziyasında, görünür, nə Füzuliyə qədər, nə də Füzulidən sonra öz sevgilisinə bu cür geniş ürəklə iltifat göstərən şair olmamışdır ki, desin:

Ey rəhmli canan, eyləmə ülfətə adət,
Nazınla vüqarın verər ətvaruva zinət,
Bihudə gülümsünmə, vüsalında nə ləzzət,
Sıx qəlbimi, yansın cigərim, qanımı qəynət...
Cövründə dəri-sirri-nibanı mənə baz et,
Naz et mənə, ey sevgili yarım, mənə naz et!

Şübhəsiz, bu cür, bu üslüblü poeziyanın əsas müvəffəqiyyəti onun dilində, nitq sənətkarlığında ifadə texnologiyalarının zənginliyindədir. Yəni nə qədər yeni, təsirli obrazlar işlədə, nə qədər diri, emosional məcazlarla poetik ünsiyyətə girə bilirsənsə, o qədər də mövzuya hakimsən...

Ümumiyyətlə, dil özünün bütün plastik imkanları ilə Şərq poeziyasının əsas qəhrəmanıdır. Xüsusilə türk dili... Çünki türk dilinin sərəncamında Şərqin üç dilinin (və təfəkküründün) imkanları var: türkcənin, farscanın və ərəbcənin...

Gər olmaya dövründə gülün xari-dilənduz,
Gər mümkün ola bülbül üçün vəsl şəbü ruz,
Nə bülbül olur dəhrdə, nə nəğmeyi-cansuz,
Qoyma ki camalın ola üşşaqıva dilduz,

Hicrindi məkatib səbəbi-talei-firuz...
Təlimini, təslimini, ey şux, diraz et,
Naz et mənə, ey sevgili yarım, mənə naz et!

Əlbəttə, burada Füzuli ruhunun, intonasiyasının təsiri güclüdür, ancaq «Naz et» ümumi poetexnologiyası etibarilə onun bilavasitə müəllifinə – şagirdə deyil, ustada mənsubdur. Və bu, şeirin klassik metafizikası ilə yanaşı, ovqatca (ideya-məzmunca) müasirliyindən də görünür:

Mahiyyətin əsrin nə bilir mərdümi-məsud,
Məsud olanın hər diləyi kəndinə mövcud,
Şeiri, qəzəli, musiqisi, qəlbi qəmalud,
Onlar da sanır hər üçünü kəndinə məbud,
Qoyma, gözəlim, mən olayım heykəli-bisud...
Mən əhli-qinayəm, məni yıx, əhli-niyaz et,
Naz et mənə, ey sevgili yarım, mənə naz et!

İdeya-məzmun müasirliyi həm yeni dövrün leksikonunda, ifadə tərzində, həm də şeirin «bətnində» gizlənmiş xəfif yumorda özünü göstərir ki, ritm, intonasiya çevikliyi, rəngarəngliyi, xüsusilə «sevgili yar»a (əslində, ilham pərisinə!) ərkyana müraciət də bunun təzahürüdür:

Hicranı sevən görməsin ömründə vüsalı,
Firqətdə yanan yalnız olur mətləbə halı,
Təzyiqdədir fəzl, hünər, rəncü məlalı,
Məsud olaraq kimdir edən kəsb kəmalı,
Göstərmə mənə, dilbər, o zəbbani-cəmalı...
Dindirmə məni, qeyriləri məhrumi-raz et,
Naz et mənə, ey sevgili yarım, mənə naz et!

Poeziya, ədəbiyyat, məlum məsələdir ki, sevincdən çox, kədərə, vüsaldan çox, hicrana həssasdır. Və bu «neqativ» həssaslıq orta əsrlərdə fərdi hisslərin, yeni dövrdə isə daha çox, ictimai düşüncənin, sosial ovqatın kontekstində və ya orbitində meydana çıxır. Yəni lirik qəhrəman hər yerdə dərd-qəm görür; ətrafdakı insanların idraksızlıq, dərrakəsizlik ucbatından hərcayı, yüngül vüsallara can atmaları bu dərdi-qəmi bir az da artırır...

İnsanlar hamı görmədiyi aləmin istər,
Sağlam ürəyin xəstə sanıb mərhəmin istər,
Nəfsi-həvəsiçün səni yox, həmdəmin istər,
Hər kəs özün istər deyərəm, xoş dəmin istər,
Mən istəmərəm vəslivi, könlüm qəmin istər...
Mən söyləmərəm cövrü cəfavı mənə az et,
Naz et mənə, ey sevgili yarım, mənə naz et!

Səməd Mənsurun bu şeirdəki mühakimələri onun Füzuli kimi fərdiyyət yox, cəmiyyət filosofu olduğunu açıq-aydın hiss etdirir. Bu keyfiyyət özünü şair-mütəfəkkirin terminologiyasında da göstərir. Xüsusilə o mənada ki, orta əsrlər sufi (panteist) fəlsəfəsinin normativ anlayışlarına kifayət qədər analitik, yeni dövrün çevik təfəkkürü mövqeyindən seziləcək qədər interpretativ münasibət ifadə olunur.

Və bir sözlə, «Mənə naz et» də Səməd Mənsur, bir çox şeirlərində olduğu kimi, yalnız şair deyil, həm də filosofdur...

Eşqindir əzəldən yaradan kövnü məkanı,
Dünya denilən əski binayə odu bani,
Kibrində, qürurunda rümuzati-məani,

Şairlərə cövrün veriyor təbi-rəvani,
Mənsurun, əya tanrısı, ey sevgili canı!..
Yax qəlbimi hicranın ilə, təbimi saz et,
Naz et mənə, ey sevgili yarım, mənə naz et!

Səməd Mənsurun «Mənə naz et» şeiri daha məşhurdur, ancaq fikrimcə, «Mənim olsan» da kifayət qədər böyük istedadın, ilhamın məhsuludur:

Ey xilqəti-ruhaniyü ey Kəbeyi-fikrət,
Hər kəs səni görsə, doğulur onda məhəbbət,
Hər kəs edə bir an o dərin gözlərə diqqət,
Olmuş görəcək eşq rümuzati-kitabət,
Qurban sənə, ey sevgili, bu ömri-müvəqqət,
Rüxsarını tədqiq eləyən əhli-bəsirət
Əzbər qılacaq dildə bu bir beytimi əlbət:
Yüz il yaşaram, bir gün əgər sən mənim olsan,
Sən, ey qədi-rəna, üzü susən, mənim olsan!

Və dərhal diqqəti cəlb edir ki, «Mənim olsan»la «Mənə naz et» arasında ideya-estetik bağlılıqla yanaşı, Füzuliyanəlikdən çox, Vaqifanəlik var...

Şeirlərdən hansının əvvəl, hansının isə sonra yazıldığı məlum deyil, ancaq düşünmürəm ki, bu barədə məlumatımız olsaydı, həmin məlumat bizə şairin yaradıcılığı, dünyagörüşü haqqında nə isə əhəmiyyətli bir ümumiləşdirmə aparmağa imkan verərdi... Əslində, öz-özlüyündə məlumdur ki, Səməd Mənsurun lirikasına əvvəl Füzulinin, sonra isə Vaqifin təsiri olub və bu təsir ümumən XX əsr Azərbaycan poeziyasının ruhuna hopmaqla,

bir növ universal xarakter daşımışdır. Ancaq etiraf edək ki, əvvəl Füzulinin, sonra isə eyni zamanda Vaqifin məktəbini istedadla, məharətlə bitirmişdir...

Derdim ki, daha eşq ola bilməz mənə rəhbər,
Məxmur edəməz bu səri-piranəmi sağər,
Gəncineyi-eşq ancaq olur gəncə müqəddər,
Sönmüş, soyumuş qəlb olamaz eşq ilə ənvər,
Qurmuş mənə eşqin bu gün, ey məh, belə məşhər
Kim, qaynatıyor beynimi bir şöleyi-azər,
Dünyanı unutdum, mənə yalnız budur əzbər:
Yüz il yaşaram, bir gün əgər sən mənim olsan,
Sən, ey qədi-rəna, üzü susən, mənim olsan!

Onu da nəzərə almaq lazımdır ki, Səməd Mənsur Füzulini təkrar etmədiyi kimi, Vaqifi də təkrar eləmir. Və söhbət ancaq ondan gedə bilər ki, XX əsrin əvvəllərinin istedadlı şairi öz poetik təfəkkür (və üslub) diapazonuna görə o qədər miqyaslı (və təbiidir) ki, milli ədəbi yaradıcılıq təcrübəsini bütövlükdə ehtiva edərək dövrün idyea-estetik tələbi (və zövqü) ilə modern səviyyədə «spektrləşdirə» bilir. Eyni zamanda buraya yeni təmayülün – Osmanlı poeziyasından gələn dil-üslub, intonasiya «ladlar»ını da əlavə edir...

Bilməm nə şikayət eləyim nurdən, ey nur,
Ənvardə nöqsan nərədən olmalı məqdur?
Sanmam ki, gözəllikdir edən kəndini məğrur,
Vəziyyəti-hal etdi məni zalimü məcbur,
Saldın nəzəri-mərhəmətindən məni sən dur,
Bir xoş baxışın etmədi bu qəlbimi məsrur,
Ey canlı çiçək, haqlı deyilmi desə Mənsur:

Yüz il yaşaram, bir gün əgər sən mənim olsan,
Sən, ey qədi-rəna, üzü susən, mənim olsan!

Şairin məhəbbət poeziyasında tarixi təcrübənin təsdiqi ilə yanaşı həmin təcrübənin müasir idyea-estetik tələblər baxımından təfsiri də mükəmməldir...

Derlərsə ki, sən tirmüjə, qaşı kamansan,
Ərvahına aşiqlərinin rəxnə salansan,
Bir sahiri-aləm, hamıya afəti-cansan,
Sən cism deyilsən, nə bilim, ruhi-rəvansan,
Aldanma, yalandır!

Sən bir bəşər övladı bəşərsən, sənə qurban,
Şairlərə baxma ki, edər hüsnüvü ünvan,
Ünvan edərək hüsnüvü ol mərdi-süxəndan
Mənalar açar, dürr saçar ortaya hər an,
Hər kəs desə ki, əhli-qələmdir sənə heyran,
Aldanma, yalandır!

Bihudə edər hüsnü vəcahət səni məğrur,
Məğrurluğun qıldı məni yazmağa məcbur,
Ayinə edər bir neçə il də səni məsrur,
Sonra olacaqsan, gözəlim, ayinədən dur,
Hər kəs desə sevmişdi sənincün, səni Mənsur,
Aldanma, yalandır!

Hər üç şeir Səməd Mənsur qələminə məxsusdur, ancaq bu şeirlərin hər biri Azərbaycan poeziyası tarixinin ayrı-ayrı dövrlərinə mənsub ilham pərisi portretləridir. Və bu portretləri bir rəssam çəkmişdir... İki əvvəlkini təsəvvür edərək, sonuncusunu isə naturadan...

Sabirdən sonrakı Sabir

Hərdən düşünürəm ki, Mirzə Ələkbər Sabir bir neçə il sovet dövründə yaşasaydı ömrü boyu arzuladığı «yeni dövran», «yeni cəmiyyət» barədə nə düşünərdi, nə yaradardı? Və başına nə işlər gələrdi?.. Dərhal Cəlil Məmmədquluzadənin, «Molla Nəsrəddin»in tərcümeyei-halları gəlib durur gözlərimin qabağında...

Və bir də Səməd Mənsurun taleyi...

Əlabbas Müznib yazır:

«Aprel inqilabından sonra şura illərində qulluq etdiyi «Molla Nəsrəddin» məcmuəsində satiralar yazmışdır. Lakin satiraları nə qədər Sabiri təqlid edərək yazmışsa da, fəqət Sabir qədər müvəffəq ola bilməmişdir.

Bununla bərabər, satiraları tənqidi cəhətdən qüvvətlidir. Sabirdən başqa bütün müasir şairlərlə bərabərlik edəcək dərəcədə qüvvətli olması mənzumələrindən bəllidir».

Səməd Mənsuru Sabirlə müqayisə edərkən Əlabbas Müznib məsələyə formal baxımdan nə qədər düzgün yanaşırdısa, mahiyyətcə o qədər yanlış baxırdı. Ən azı ona görə ki, «aprel inqilabından sonra şura illərində» heç «Molla Nəsrəddin»in özü o «Molla Nəsrəddin» deyildi...

Ancaq ədəbiyyatşünaslıqda bu məsələyə nədənsə «ciddi» yanaşmışlar...

Əhməd Cəfəroğlu «Modern azəri ədəbiyyatına toplu bir baxış»ında Səməd Mənsurun adını Sabir məktəbinə mənsub «bir sıra tanınmış ədiblər»in içində birinci çəkir.

Nazif Ələkbərli yazır:

«Lakin çağdaş Azərbaycan ədəbiyyatşünasları arasında S.Mənsurun Sabir ədəbi məktəbinə mənsubluğu məsələsində fikir birliyi yoxdur. Əgər A.Zamanov və T.Novruzov onu Sabir ədəbi məktəbinə aid edirlərsə, A.Abdullazadə bir qədər başqa cür düşünür. Sonuncunun fikrincə, S.Mənsur Sabir məktəbinin nümayəndəsi deyil, onun müasiridir. Hər ikisinin toxunduğu mövzular təxminən eynidir.

Şübhəsiz, bu fikir ağlabatandır»...

Ağlabatandır... Ancaq nəzərə almaq lazımdır ki, söhbət Mirzə Ələkbər Sabirlə müqayisədən gedir!..

Və bu cür müqayisəyə heç Səməd Mənsur özü də razı olmazdı!..

O, dahi sələflərinə ehtiramla yanaşırdı, onların yerini tutmaq, yaxud onlarla bərabər olmaq iddiasında deyildi... Onun heç kəsi təkrar eləməyəcək Öz yeri, Öz üslubu (və Azərbaycan poeziyası tarixində Öz missiyası) vardı ki, onu dünyadan gedənə qədər layiqincə yerinə yetirmişdi...

Anar yazır:

«...Səməd Mənsurun satirası Sabir və «Molla Nəsrəddin» ədəbi məktəbinin ənənələrini yeni dövrdə və yeni şəraitdə davam etdirir. Sabir ötən zamanların eybəcərliklərinə gülmüş və bu gülüşün mənəvi və maddi cəzasını çəkmişdisə, Səməd Mənsur yeni sovet quruluşunu, xüsusilə bu quruluşun Azərbaycandakı əməllərini satira atəşinə tutub, müstəmləkə olmaq dərdini, sümürülmək bəlasını qələmə alır və həmin bu yeni cəmiyyətin cəzasına məruz qalır».

Və davam edir:

«Tale Səməd Mənsura «qıymadı, erkən əcəl onu 37-ci il faciəsindən neçə il qabaq apardı. Ondan məhbəslə, sürgünlə, gülləylə hayıf çıxa bilmədilər. Quruluş onu başqa bir cəzaya məhkum etdi – unuduluşa. Guya heç bu adda adam olmayıb. Guya heç bu adda şair yazıb yaratmayıb».

Sona Xəyalın tərtib etdiyi «Əsərlər»dən aydın olur ki, Səməd Mənsurun satirik şeirləri ardıcıl olaraq «Tuti» (1915-1917), «Şeypur» (1918-1919) və «Molla Nəsrəddin» (1926) jurnallarında çap edilmişdir.

Şairin satirik yaradıcılığının ilk illərinə aid nümunələrdən birində deyilir:

Qoydum uşağı məktəbə yazı-pozu bilsin,
Yəni bu kitablarda yazılmış sözü bilsin,
Qazet oxusun, əyrini bilsin, düzü bilsin,
Xalxın toruna düşməsin, hər şey özü bilsin...
İndi bu işə xeyli peşimanam, a Tuti!
Bir bəxti qara, halı pərişanam, a Tuti!

Bu, uşağını məlum ümidlərlə yeni tipli məktəbə verən bir atanın şikayətləridir. Uşaq (və nəticə etibarilə, yeni məktəb) isə nəinki atanın ümidlərini doğruldur, hətta elə bir peşimançılıq yaradır ki, təsəvvürə belə gəlməz...

Dinsəm, çığırır üstümə: «Kəs, canını allam,
Evdən gedərəm bir kərə, qastinədə qallam,
Vuram başıma güllə, sənin boynuna salam»...
Hər şamü səhər didəsi giryanəm, a Tuti,
Bir bəxtiqara, halı pərişanam, a Tuti!
Bidadrəsəm, bisərü samanəm, a Tuti!

Nazif Ələkbərli yazır:

«Yalançı və üzdə ziyalılıq mövzusu S.Mənsurun qələmində sərt ittiham vasitəsinə çevrilir. «İntelligentik» şeirində intelligentin meşşan xarakteri, qumara, yüngül həyata meyli və s. mənfi xüsusiyyətləri ifşa olunur»...

Gəlməmişik millətə xidmət edək,
Biz çalışaq milləti rahət edək,
Pul qazanaq, xalqa himayət edək,
Arif olub bunca himaqət edək;
«Tuti», bağışla, sənə aldanmarıq,
İntelligentik, fəhmli oğlanlarıq.

Sabirin bir vaxtlar «naz ilə gəzən... inteligentləri»nin axırı belə də olmalı idi...

İctimai mühitə ailə-məişət mövzusundan başlayan satirik münasibət (və müdaxilə) Səməd Mənsur yaradıcılığında onun (ictimai mühitin), demək olar ki, bütün miqyas və səviyyələrini əhatə etməyə qədər yüksəlir...

Söyüşün, görsənə şücaətiniz,
Söyüşün, vəzh ola qeyrətiniz.
Söyüşün, kəşf ola kəramətiniz,
Söyüşün, artıq ola hörmətiniz.
Söyüşün, şu ey «nəcib»lər, söyüşün,
Fəxri-millət «ədib»lər, söyüşün!

Səməd Mənsur «Molla Nəsrəddin»ə və ümumiyyətlə «Molla Nəsrəddin» məktəbinə münasibətini (sevgi-

sini!) heç zaman gizlətməmiş, «Molla Nəsrəddin əmiyə» şeirində (1916) isə bilavasitə izhar etmişdir:

Əvvəl var idin dipdiri meydanda könüllü,
Jurnalçı, nəsihətçi, nəqi, «mollayi-milli»,
İndi niyə oldun belə sən, ay başıküllü,
Çallaşdı qəmindən qara saqqalım, a Molla!
Qalx, bir cana gəl, dur, qadanı alım, a Molla!

Bir dillən axır, dondumu qanın, qara döndü,
Jurnal necə oldu, odamı «sollar»a döndü,
Ya «Çəmbərəkəndi»nə gedən yollara döndü?..
Sən «Dum»san, əlindən bizara qalım, a Molla?
Qalx, bir cana gəl, dur, qadanı alım, a Molla!

...Gəldin Bakıya, eylədi aləm sənə hörmət,
Verdik sənə biz hər gecə bir evdə ziyafət,
Sən sanma, sizə, jurnala idi o məhəbbət,
Jurnal da belə... Sındı pərü balım, a Molla!
Qalx, bir cana gəl, dur, qadanı alım, a Molla!

...Bir söz, Əli Razi işinin üstünü açdı,
Çoxdan bəri tarix işinə rövşəni saçdı,
Xalq indi deyir: Molla yığıb pulları qaçdı,
Qoyma daha artıq olalar alim, a Molla!
Qalx, bir cana gəl, dur qadanı alım, a Molla!

Bu şeirdən bir il sonra – 1917-ci ilin əvvəllərində bir-birinin ardınca şairin «Xəbər gəldi çıxacaq» və «Molla Nəsrəddin» çıxdı» şeirləri «Tuti» də çap olunur ki, hər iki şeirdə eyni mövzu davam etdirilir.

Birincisində deyilir:

Əfv eylə məni, ağrıdıram başın, a Molla!
Bildinmi sənə neylədi yoldaşın, a Molla?!

Hər millətə saçdın günəş, ey nuri-cahantab,
Övladi-vətən cəhldən olduqda cihayab,
Birdən-birə bəs nərdə imiş səndə bu çirkab;
Yoxsa uyudunmu, soyudu aşın, a Molla!
Bildinmi sənə neylədi yoldaşın, a Molla!

...Batsın gərək ol kimsə ki, jurnalı batırdı,
Kəndisi yatıb orda, həm insanı yatırdı,
Padvalda müdirəm deyərək fors satırdı;
Fərqin qoyamazdı qurusun, yaşın, a Molla!
Açkisinə qurban belə yoldaşın, a Molla!

İkinci şeir isə «Jurnalı batır»an həmin «yoldaş»ın portretini tamamlayır:

Qısa qamətli, siyah çöhrəli bir şanlı ədib
Ki, qara açkisi, gənc börgü verir əqlə firib.
Bir qolu o birsinə nisbətən az qıssa, vəli
Belə nöqsan salamaz gözdən o fazil gözəli.
Yerişindən o mələkhafizənin bəllidi kim,
Mollanın baş yazanı, şairdir, həm də həkim.
Cibdə kağız-qələmi, versə özün padvala gər,
İki çətvər qurudunca iki-üç şeir deyər.
Birisi millətin əxlaqi-rəzilin söyəcək,
Birisi xəmr fəsadın yazıb elam edəcək.

Biri ətfalə edər xülqi-həsən tövsiyələr,
Biri «səyyadlərə» ciddi nəsihətlər edər.
Bar ilaha, onu çox görmə bizim jurnal üçün,
Yaşasın, şeir desin.
«Amədən»dir, nə zərrər, biz ki gözəllər deyilik,
Ya duxanlarda o ustada bərabər deyilik.

Səməd Mənsurun sabiranəliyinin bir mühüm göstəricisi də İran mövzusunu davam etdirməsi, yeni tarixi şəraitə uyğun olaraq mövzunun yeni çalarlarını ortaya çıxarması idi...

İranlılarız, taleyi xoş, bəxtəvəriz biz,
Heç işləməyib, müftə yeyib, düz gəzəriz biz,
Əfkari-siyasətdə nə çox pürhünəriz biz,
Dünya ola bir, həm belə qəflətsevəriz biz,
İranlılarız, taleyi xoş, bəxtəvəriz biz.

Qüssə nə rəva, etməyə mollalarımız var,
Millət qəmini çəkməyə mollalarımız var,
Tehranda böyük məclisi-şuralarımız var,
Millət babası şah ilə xuni-ciyəriz biz,
İranlılarız taleyi xoş, bəxtəvəriz biz.

...Qeyrət dediyin şəhrə yel əsdi, tələf oldu,
Bazani-metərtək tökülüb yerdə kəf oldu,
Oldur səbəbi çoxlar ona bitərəf oldu,
Baxdıqca o mərhumə çox həsrət çəkəriz biz,
İranlılarız, taleyi xoş, bəxtəvəriz biz.

Şair İranın orta əsrlər ətalətini kəskin tənqid edir, mənəvi-ruhi xəstəlik halını almış köhnə adətlərə qarşı

çıxır, dini fanatizmin hansı ictimai bəlalara, hansı bəşəri faciələrə səbəb olduğunu ürək ağrısı ilə göstərirdi:

On səkkiz il hər tərəf, hər yanda gəzdim bagrı qan,
Kimsəsiz, hər mədrəsə küncündə tutdum aşiyan,
Gah tapardım, gah yox əkmək, yeyərdim həp yavan,
Tirboyun tüllablərlə ömr sürdüm çox zaman,
İmtahan verdim nəhayət, sonra oldum rövzəxan,
Əlaman, ey çərxi-gərdun, gərdişindən əlaman!

Dini mərkəzlərdə «təhsil» almış bir ruhaninin dilindən deyilən bu satirik şeirdə həmin din xadiminin «iş»inin nədən ibarət olduğu təsvir olunur:

Ağ cigər kimi saraldı dərddən rüxsari-al,
Saqqalı qoydum uzansın yarım arşın laməhal,
Qumriyü Dilsuzdən mən eylədim kəsbi-kəmal,
Bakıya qoşdum hər il, pullar qazandım bir çuval,
Cib dolu döndüm geri, Xalxal tərəf oldum rəvan,
Əlaman, ey çərxi-gərdun, gərdişindən əlaman!

Lakin vəziyyət elə gətirir ki, Bakıya yol kəsilir. Və «şeyxi-kamil»in də «bazar»ı bağlanır:

Könlümü talan edər hər ləhzə min rəncü kədər,
Evdə qaldım, heyf kim, mümkün deyil etmək səfər,
Badikubə içrə oldu rövzəpərlər bəxtəvər,
Hər biri yüz məclisi tutmuş, verirlər dərdi-sər,
Mən kimi bir şeyxi-kamil evdə qalmış bağrı qan,
Əlaman, ey çərxi-gərdun, gərdişindən əlaman!

«Şeyxi-kamil» «çıxış yolu»nu yalnız onda tapır ki, özünü plova tutub dərdini dağıtsın...

Ey ürək, əmrazıma tək bircə dərmanım plov,
Gəl, gəl, ey siminbərim, tabü tənü canım plov,
Sən mənim ağlım, vücudum, qəlbü vicdanım plov,
Sən mənim Məkkəm, Mədinəm, dinim, imanım plov,
Sənsiz aləm olmasın, məxrubə olsun asiman,
Əlaman, ey çərxi-gərdun, gərdişindən əlaman!

Səməd Mənsur İran, ümumən müsəlman mövzusuna «Molla Nəsrəddin»də çap olunan satiralarında daha çox müraciət etmişdir...

Deyirəm, Molla əmi, cümlə müsəlman yaşasın,
Yəni onlarda olan namusi-insan yaşasın!

Yaşasın tazə Hicazın kralı İbn Səud,
Sonra Feysəldə olan şövkəti-Sultan Məhmud,
İngilis tazə krala yenə versin mövlud,
Müxtəsər, baş-başa ğəyyur Ərəbistan yaşasın,
Ərəbistan dediyin türbəti-rizvan yaşasın!

Yaşasın Türkiyədə nalə çəkən köhnəçilər,
Mövləvilər, zorilə şapka qoyan əhli-«xəbər»,
Oldu biçarələrin yurd-yuvası zirü zəbər,
Mövləvi beççələr ol zülfi-pərişan yaşasın,
Əhli-Bəktaşi Vəli, qəhvəvü qəlyan yaşasın!

Yaşasın Ərdəbilin minlər ilə rövzəxanı,
Xalxalın seyyidi və İsfəhanın rəml atanı,

Kirmanın dərvişi və Məşhədin əfyun satanı,
Ölürəm, a kişi, başdan-başa Gilan yaşasın,
Bizim isna əşəri məzhəbi, İran yaşasın!

İrandakı Məclis seçkilərinə «münasibət» bildirən şair yazır:

Sözdür, İranda gərək məclisi-əyan seçilə,
Müctəhidlər seçilə, bəy seçilə, xan seçilə.
Çünki İran işinin xeyrini iranlı bilir,
Nə qanar mərdümi-dananın işin mən kimilər.
Mülkədar olmasa, İranda həyat olmayacaq,
Kəndlinin qarnı doyursa, bərəkat olmayacaq.

Və «İran işi»nin biri də təntənəli tacqoyma mərasimidir ki, səsi-küyü dünyanı başına alıb, ancaq bunun xalqa heç bir xeyri yoxdur...

Telqraf oldu bütün Avropaya, ölkəyə car
Ki, bu günlərdə olur şah Rza tacgüzar.

Sevinir, həpsi sevir tacı, yəqindir sevəcək,
Çünki sevdirmiş əzəldən onu nəsli-Qacar.

Bəzmlər çidələnib, şəmi-şəbistan yaxılıb,
Nəhr tək cari olbu abi-limu, abi-ənar.

Hamı çaylar sevinir, cümlə ağaclar sevinir,
Bir tərəf tac günü, o biri tərəf fəsli-bahar.

...Bəs o yaz-qış çürüdən cismini palçıqlarda,
Ac qalan, əyni yalın, surəti məhrum dehqan?

Bəs o qürbətdə, fəlakətdə qalan hamballar,
O əzilmiş qocalar, yaymaya həsrət tiflan?

Bəs o illər uzunu görməyən asudəliyi,
Bəs balıq tutmaq üçün çayda-çamurda çalışan?..

Anlamaz kimsə onu, çünki o, İran işidir,
Satmayan dinini dünyaya müsəlman işidir.

Səməd Mənsurun «Tuti», «Şeypur» və «Molla Nəsrəddin» jurnallarında çap olunmuş «A Tuti», «Mirzə məarif», «Qıraxmallı bəy», «Meydana çıx», «Gərəkdir», «Mənim olsun», «Söyüşün», «Yad et», «İranlılar marşı», «Bizim millət azad olub», «Nikolay dayıya», «Məslək satıram», «Yaman getdin», «Yeznə», «Qaçmaq günüdür», «Əbani-hal», «İskilər, ovlar liləndilər», «Töhfə», «Bəşarət», «Müsəlman ustası», «Bir möminin avropalıya xitabı», «Vahid Rusiyaya ithaf», «İnşaallah», «Hazırlıq», «Yolka bayramından məhrum olanlara töhfə», «Balaxanı mənəm-mənəm deyənlərinə töhfeyi-əbədi», «Müsahibə», «O nədir», «Lokarno», «Yaşasın», «Cavan doktorlarıq», «Əksi-şahanə», «İranda məclis seçkisi», «Yaz fəsli», «Çaxır», «Bulvar qəhrəmanları» kimi onlarla satirik şeirləri qələmə alındıqları illərin tarixi salnaməsi, həmin illərdəki insan (və həyat) mənzərələrinin dəqiq təsviri, mükəmməl interpretasiyasıdır.

Və Sabirdən sonrakı sabiranəlikdir!..

Anar yazır:

«Qəribədir, amma bir yandan da çox təbiidir ki, 70 il bundan qabaq yazılmış satiralar bu gün daha da sərt, kəsgin, daha aktual səslənir. Bəlkə bu şeirlərin əsl məqamı elə indi gəlib»...

Yazdılar, Şərqdə sutanları çox danladılar,
Ağalar mətləbi gör indi necə anladılar,
Parisə, Londona bir səslə durub banladılar...
Kapital söylədi: «Səs salma, cibişdan yaşasın,
Sonra sizlərdəki alver malı-vicdan yaşasın.

Yaxud:

Əzəl aclıq məni məcbur elədi,
Şöğərib millətə muzdur elədi.
İndi pul gəldi də məxmur elədi,
Məni millətdən əcəb dur elədi;
O keçən məsləki, bişək, satıram,
Gəl, gəl, ay müştəri, məslək satıram!

Əlbəttə, bu misralar Sabirin eyni rədifli məşhur şeirinin poetexnoloji təsiri altında qələmə alınmışdır, ancaq məzmunca tamamilə müasirdir...

Hərə öz nəfinə tapmış yeni yol,
Sosialdır, federal, sağ ilə sol,
Mən də tapdım bu yolu, pul ilə bol,
Pul verən, hər necə ollam, desə ol.
Gözümü pullayıb eynək satıram,
Gəl, gəl, ay müştəri, məslək satıram!..

Səməd Mənsurun Azərbaycana xarici müdaxilə, onun doğurduğu mürəkkəb ictimai-siyasi vəziyyət, ümumiyyətlə, beynəlxalq münasibətlərə həsr olunmuş satirik şeirləri dövrün mənzərəsini anlamaq baxımından diqqəti cəlb etməyə bilməz. Məsələn:

Top nərəsi, qurşun səsi, at kişnəməsindən
Göylər dağılır, evlər uçur qülqüləsindən.
Türk ordusu buysa ki, onun nərə səsindən
Aləm dağılır, vaz keç hökumət həvəsindən.
Qaçmaq günüdür, ingilis! Osmanlı gəlir, arş!
Qaçmaqda Mkırtıç sənə, Hartun sənə yoldaş!

Nazif Ələkbərli yazır:

«1918-20-ci illər S.Mənsur yaradıcılığının ən məhsuldar, onun fəaliyyətinin ən səmərəli illəri olmuşdur. Bu dövrdə onun milli istiqbala, azad Azərbaycan mövzusuna həsr etdiyi şeirləri çıxmışdır ki, bu şeirlər də onun milli əqidə ilə, tərəqqi və istiqlal ilə tənəffüs etdiyini göstərməkdədir».

Bu dövrdə yazılmış şeirlərindən biri «Bakılı» adlanır. Və bu şeirə ona görə xüsusi diqqət vermək lazımdır ki, Səməd Mənsur bakılı idi, doğulub boya-başa çatdığın yurdun təəssübünü çəkməmək mümkün deyildi; digər tərəfdən isə, həmin illərdə bütün Azərbaycanın taleyi Bakıda həll olunur, ürəyi Bakıda döyünürdü...

Ey sərasər bədəni, fikri bətalət bakılı,
Başqaları məqsudu amalına alət bakılı.

Keçən əyyamda pakub idin əğyarə yenə,
Payimal olmalısan hər gələnə, hər gedənə,

Rütbə, mənsəb, dadaşım, verməyəcək kimsə sənə;
Rütbəyə, mənsəbə yox səndə ləyaqət, bakılı,
Ey sərasər bədəni, fikri bətalət bakılı.

Öz yerində bir adam etməsə hörmət də sənə,
Kirvələr, pasluşilər etsə hökumət də sənə,
Qardaşın tazə pristav verə zillət və sənə;
Ağadır, döysə səni, çəkmə xəcalət, bakılı,
Ey sərasər bədəni, fikri bətalət bakılı.

...Bu cahan fanidir, bel bağlama, ey kəblə filan,
Ver yesin malını cindar, aşını mərsiyəxan,
Əcnəbilər daşısın neftini milyan-milyan;
Sən özün bir pitîyə eylə qənaət, bakılı,
Ey sərasər bədəni, fikri bətalət bakılı.

Səməd Mənsurun sovet dövrü satiralarında ayrı-ayrı konkret şəxslərin tənqidi daha sərt, daha kəskindir...

Mən deyərdim ki, bu Baba kişidir,
Kişinin köhnəsidir, bişmişidir.
Gözlədim, çıxmadı bir şey Babadan,
Babanın da evi olsun abadan.
İşini qurdaladım, yaş çıxdı,
O da Dadaş kimi oğraş çıxdı.
Dəhri-məxrubədə bəs yoxmu kişi?
Bu cahanın qalıb Allaha işi...

Yaxud:

Ağlaram gülməli, əylənməli ətvarından,
Gülərəm ağlamalı haləti-kirdarından.

Səni Məcnun eləmiş sanki riyasət eşqi,
Anlaşılmaz iki söz etdiyi güftarından.
O palan layiqi arxan dayanar səndəliyə,
Sanki aləm şaşıyor nitqi-güharbarından...

Ancaq təbii ki, şairin satirik qələminin qüdrətini, nə qədər doğru deyilsə də, bu «həcvlər» yox, cəmiyyətin ümumi əhval-ruhiyyəsindəki naqisliklərin tənqidi müəyyən edir:

...Klublar ayda qırx gün bağlanır,
Qulluqçusu həftədə bir yağlanır,
«Kommunxoz»dur, qapısında ağlanır,
Kənd bangıdır, «yox»dan başqa sözü yox.

...Kənd məktəbi bir həsirdir, dörd divar,
Müəllim yox, bir qapıdır, bir açar,
Kənd şurası gördüyünə göz yumar,
Mənzili var, içində bir mizi yox.

«Azteeso»dur, dəftəri çox, işi az,
«Narkomsabes», «sabah gəl»i qurtarmaz,
«Narkompros» cavab verməz, yüz min yaz,
Kooperativdir, qışda getsək, buzu yox.

Sovet sosialist quruluşunun dəbdəbəli (və yekəxana) ad-abreviaturlar arxasında gizlədilən yalançı, saxta simasını «aşıq dili» ilə verən şair dövlət rəhbərlərinin «karikatur»larını yaratmaqdan da çəkinmir:

Mirzoyandır, alov yağır gözündən,
Mirbəşirdir, məna çıxmır sözündən,

Qəzənfərdir, qorxar özü-özündən,
Söz soran aşığa Allah yar olsun.

Lakin, görünür, sovet sosialist dövrü yaradıcılığında Səməd Mənsurun mövcud sosial-siyasi gerçəkliyə ən sərt (və sarkastik!) reaksiyası «Bacıoğlunun dayıya ərizəsi» və «Dayının bacıoğluya cavabı»dır (1925) ki, bu şeirləri oxuyanda Nəriman Nərimanovun taleyi yada düşür...

Bacıoğlu «ərizə»sində yazır:

Ay dayı, gəl bölüşək hər nə ki var vəlvələsiz,
Mən cəsarətsiz uşaq, sən kələmərd hövsələsiz.
Yer mənim, lehmə mənim, vışka mənim, neft sənin,
Beləliklə düzələr müşkül işi hər kəsənin.

...Əmrü fərman sənin olsun, onun icrası mənim,
Hər şeyin nəfi sənin, davası, qovğası mənim.
Can dayı, səndən ufaq bir diləyim var mənim,
Mən ölüm, sanma ki, başqa kələyim var mənim.
Mənə bir avtomobil, bir gözəl ev, bir kabinet
Ver ki, daim eləyim əmrinə qul tək xidmət.
Bizim el, qorxma, yatıbdır, yeri rahatdır ona,
Ona gəl dəyməyinən, bir yekə minnətdir ona.

Bu da «ərizə»nin cavabı:

Bacıoğlu, a qırışmal, bu nə sözdür, nə kələk?
Aramızda, a gədə, «sən» nə demək, «mən» nə demək?
...Naəlac oldum əzəldən sənə tapşırdım işi,
Çaşaraq yoxsa sanırsan özünü sən də kişi?

...Əbləh oğlu, səni qoydum ora huşyar olasan,
Tutasan göz qabağın, bir uca divar olasan.
Arxada mən işimi sazlayım, əncama salım,
Azəri türklərini qafil edib damə salım.
...Sən özün, varü yoxun, əhlü əyalın da mənim,
Baxışın, tərpənişin, fikrü xəyalın da mənim.
Adə russan, malorus, ermənisən, sarsaq adam,
Səni millət sanaraq qeydinə bir zərrə qalam?
Sən unutma ki, mənim bəndeyi-fərmanımsan,
Əmrimə etsən itaət, gözəl oğlanımsan.
Sözümə baxmasan, onda çəkərəm Moskvaya,
Səni də bənd edərəm adı görünməz yuvaya.

Səməd Mənsuru tənqid edən (əslində, ona ölümündən sonra ölüm hökmü yazan) sovet tənqidçi-ideoloqları bu şeirin adını belə çəkməmişdilər. Çünki tənqid etmək üçün heç olmasa bir-iki beyt sitat gətirmək lazım idi. Şeir isə elə yazılmışdı ki, hansı beytdən nümunə versən, onun həqiqət olmadığını sübut etmək ya mümkün deyildi, ya da göz-görəti hayasızlıq olardı.

Səməd Mənsurun qəzetlərdən, jurnallardan, kitablardan «qovulan» poeziyası ürəklərə, dillərə köçüb yaşamağa başladı. Və beləliklə, xüsusi bir poetik məktəb yarandı ki, sovet dövründə bu məktəbi «dalda»larda davam etdirən söz sahibləri hərdən «burda Səməd Mənsuru da yad edəlim» deməklə ona ehtiramlarını bildirməkdən fəxr duyurdular. Böyük Əlağa Vahid kimi...

Üsyanlar, inqilablar, çevrilişlər gəlib gedir... İnsanlıq isə həmişə qalır...

Səməd Mənsur yaxşı görürdü ki, yeni quruluşla köhnəsi arasında mahiyyətcə fərq yoxdur... Və ona görə də deyirdi:

Gərçi bizlər elədik qibleyi-aləm tərkin,
Təzədən xan, bəy, ağa sizdə də var, bizdə də var.

Müstəbidlik bəşərin mayeyi-zatində imiş,
Qan içən Sümri-dağa sizdə də var, bizdə də var.

Derlər: «Ərzi-bəşər axır olacaqdır cənnət»,
Böylə bir zənni-xəta sizdə də var, bizdə də var.

Milliyyət... Və beynəlmiləliyyət

XX əsrin əvvəllərində elə bir Azərbaycan ziyalısı təsəvvür etmək mümkün deyil ki, millət mövzusunda düşünməmiş, yaxud eyni zamanda söz deməmiş olsun. Səməd Mənsur üçünsə bu, əsas mövzulardan idi...

Ya Rəbb, öz lütfünü kəsmə millətdən!
Lüf qıl, qurtaraq çəngi-zillətdən!
Bu möhlik yanğından saxla islamı!
Etmə bizi məhrum feyzü rəhmətdən!

Şair yaxşı bilir ki, mənsub olduğu millət yüzillərlə qəflət yuxusuna gedib, dünya işlərindən bixəbər qalıb; indi yavaş-yavaş oyansa da, halı pərişan, əhvalı qarışıq, fikri dolaşıqdır...

Məqsədin yolları xoflu səhra,
Bir tərəf yanğındır, bir tərəf dərya!
Dəstgir ol sən, ey xaliqi-yekta,
Qurtaraq izzətlə bu fəlakətdən!

Doğrudur, şeirdə Tanrıya müraciət olunur, əsas ümid ondan gözlənilir, lakin şair millətin oyanmasında «xadimi-elmü məarif»lərin, «əhli-qeyrət»lərin rolunu xüsusi qiymətləndirir, onların üzərinə tarixi məsuliyyət düşdüyünü ayrıca qeyd edir:

Ey olan xadimi-elmü məarif,
Etmə diriğ, hər qədər olsa məsarif.

Xeyir iş görən edər xeyrə təsadüf,
Haqq da razı olar əhli-qeyrətdən.

Səməd Mənsur milliyyətçilik ruhlu şeirlərinin çoxunu bu cür birbaşa, yaxud müstəqim mənalı deyil, özünəməxsus satirik «dil»də daha çox yazmışdır:

Milləta, sən də ayıl, bir qeyrət et, meydanə çıx,
Olma xam, əvvəl rəviş öyrən, yola zindanə çıx.

...Bir yoğun millətpərəst ol, evdə çoxlu-çoxlu yat,
Harda məclis olsa gəl, çox-çox danış xalqı oyat,
Xəlvətə düşdükcə sən vicdanı bir dinarə sat,
Şöhrət axtar, ədlin, insafın, səbatın daşın at...
Böylə boş şeylərdən əl çək, səy qıl bir yanə çıx,
Olma xam, əvvəl rəviş öyrən, yola zindanə çıx.

...Xaricinin millətin sevməkdən, aşna, qıl həzər,
Sarsaq işdir bu təəssüb, cibinə eylər zərər,
Pul qazan, pul hər nədən olmuş ola, ol bəxtəvər,
Qıl qənaət, ye günorta turp-çörək, axşam kəvər...
Yığ pulu qoy kisəyə, dövlətli ol, meydanə çıx,
Ey müsəlman, biclik öyrən, bu yola zindanə çıx.

Yüzillərlə millətin başını xarab etmiş cürbəcür eşq xəyalları, məhəbbət əfsanələri, indi də «Zinalar»la keflər, «Yolka ətrafı»ndakı macəralar, irəli çıxanların «qeyrət müqəvvası»ndan başqa bir şey olmamaları gələcək barədə də yaxşı heç nə vəd etmir. Və qəzet-jurnalların da oyanışa, tərəqqiyə, «millət olmağ»a çağırışları qulaq ardına vurulur...

«Tuti»ya, əl vurma, millət eşq dünyasındadır,
Eşq dünyasındadır, dilbər təmənnasındadır.

...Millət öz karın bilir, sən «Tuti», çox dad eyləmə,
Boş yerə ağzın yorub bir kəlmə fəryad eyləmə,
Gah gülüb, gah ağlayıb, gah inşad eyləmə...
«Tuti» çaşmış xəlqdən imdad xülyasındadır.
«Tuti»ya, qaç get, bu millət eşq dünyasındadır.

Şair göstərir ki, belə bir millətin azadlığa çıxması da müsbət heç nə vəd etmir...

Qaç, oğlan, bizim millət azad olub,
Bizim millət azad olub, zad olub.

Hürriyyət nədir çünki, bizlər anlarıq,
Çətin işimizi indi sahmanlarıq,
Vurub çırparıq, döşlərik, yanlarıq;
Bu gün nabələdlər də ustad olub,
Qaç, oğlan, bizim millət azad olub.

Dəli at kimi qırmışıq noxtanı,
Hanı girdavoy, qorxaq ondan, hanı?
Vurub tapdarıq arvadı, oğlanı;
Biz azadəyik, könlümüz şad olub,
Qaç, oğlan, bizim millət azad olub.

Vurub yıxmaq, öldürmək adət bizə,
Ev açmaq və oğurluq sənət bizə,
Edərdi pristav əziyyət bizə;

Pristav qaçıb, polis bərbad olub,
Qaç, oğlan, bizim millət azad olub...

Ancaq bu intəhasız ümidsizlik içərsində hərdən müəyyən təsəlli qığılcımları da görünür. Məsələn, Üzeyir bəyin xidmətləri kimi...

Və şair onu ürəkdən alqışlayır:

Min təşəkkür bu Üzeyrin bizə xidmətlərinə,
Xalqa göstərdiyi ol səhneyi-qeyrətlərinə!

...Görə Zərdabi Həsən bəy Üzeyrin hünərin,
Qırx sənə zəhmətinin gör, ey Nəcəf bəy, səmərin.
Durun alqışlayın indi bu günün bəxtəvərin,
Sındırıb çün operettayla cəhalət kəmərin.
Mən də təzim edirəm səhneyi-qeyrətlərinə,
Min təşəkkür bu Üzeyrin bizə xidmətlərinə.

Fikrimizcə, «Yoldaş Nərimanovun vüruduna təbrik» də şairin milli hisslərinin, duyğularının təlatümündən yaranmışdı...

Sönük ürəklərə verdin vürudunla sürur,
Demək olar ki, qaranlıq sərhaya saçdın nur.

...Nə səndən, indi, əzəldə əsərdi, titrər idi,
Səriri-səltənəti harisani-naməşhur.

Yetimlər sevinər haminin vürudu ilə,
Ləimlər acıyar, qarşı dursa ədl ilə zur.

Adın eşitçək ümumən könüllər aldı sünun,
Üzün görən nigaranlar nigahi oldu sürur.

Edər bu gün bu vürudunu zəiflər təbrik,
Deyər ki, çox yaşa, yoldaş, ol bəzmdə mənsur.

Azərbaycanda mürəkkəb bir tarixi şəraitdə hakimiyyət başına gələn (əslində, gətirilən) milli bir ziyalının böyük işlər görəcəyinə, ən azından millətin yetim-yesirinə yiyə duracağına şair əmin idi. Və bu əminliyində, prinsip etibarilə, yanılmamışdı da... Ancaq sonralar özünün də etiraf etdiyi kimi, «zəmanə alçaqlıq zamanı» idi, Nəriman Nərimanov da günah olmadı...

Səməd Mənsur milliyyətçi olduğu qədər də Sabir, Hadi, Cavid kimi beynəlmiləliyyətçidir.Və onun bu beynəlmiləliyyətçiliyi milliyyətçiliyi qədər dərin, bütün miqyası ilə dərk edilmiş və səmimidir...

Bir əsr ki yer səhnəsidir qan ilə əlvan,
Bir vaxt ki övrainə heyran olur insan,
Bir gün ki baxan hər tərəfə qan görəcək, qan;
Qarşu duruyor zülmət ilə bədri-dirəxşan,
Qan tökməyə, can verməyə amadədü hər an.
Hər kəs ki hüququn düşünər, rütbəsin anlar,
Hər kəs eşidər hər səsini, hər sözün anlar.
Bir əsr ki çarpışmadadır nur ilə zülmət,
Bir vaxt ki məzlumlar almış ələ fürsət,
Bir gün ki tutub yer üzünü həşri-qiyamət,
Sən, ey əzilən, sən də oyan, sən də qiyam et.
Görsün səni də, xof eləsin əhli-xəyanət,

Çıx ərsəyi-meydanə çabuq əldə silahın.
Məzlumlara şamil olan Tanrı pənahın!..

«Proletar beynəlmiləlçiliyi»nin hələ sovet «çirkab»ına bulaşmamış bu poetik təzahürünü Səməd Mənsur yaradıcılığı üçün ona görə təbii saymaq olar ki, bir il sonra – 1920-ci ildə eyni mövzuda daha mükəmməl şeiri olan «Beynəlmiləliyyət»i yazıb çap etdirdi...

Qalx, ey əlli min dürlü qabarla qabaran ər,
Əzgin əlivin sövlətini aləmə göstər!

İllərcə səni qul edəni məhv edəcəksən,
Hər bir bəşəri kəndinə bilməklə bərabər!

Səs çıxmayacaq, yaxşı demişlər ki, tək əldən,
Dağlar duramaz, cümlə bəşər olsa bərabər.

Məşhur «İnternasional»ın «qalx, ey lənətlə damğalanmış aclar və qullar dünyası!» misralarını (və intonasiyasını) xatırladan bu ifadə tərzi Səməd Mənsurun ümumbəşəri dünyagörüşündən xəbər verir. Çünki öz millətini sevən böyük şair-mütəfəkkir ümumiyyətlə insanlığın taleyinə laqeyd ola bilməz:

Birlik, yenə birlik demiş ərbabi-təsəvvür,
Beynəlmiləliyyət, ucalıq, aləmi-əkbər!

Beynəlmiləliyyətlə dönər cənnətə dünya,
Dünyayə işıqlar saça ol bədri-münəvvər.

Qalx, pərdeyi-cəhli uzağa at göz önündən,
Məruz ola ənzarına ta qayeyi-əhmər.

İnsanların bir qisminin onların daha böyük hissəsini allahsızcasına istismar etməsi, qarışqa kimi tapdalayıb əzməsi insafdan deyil. Və bir halda ki, əzilənlərin birliyi onların xilas yolu, dünyada bərabərliyin, «zövqü səfa»nın «yüksəliş»in rəhnidir, bu birlikdən niyə imtina etməli?..

Görsün də bu yüksəkliyi, sərvətli utansın,
Onlar ki sanırdı bizi bir muri-mühəqqər.

Görsün o mühəqqər necə bir qaplana dönmüş,
Qarşı duramaz kəndisinə əsvətü əsğər.

Beynəlmiləliyyət ürəyə zövqü səfadır,
Beynəlmiləliyyət bizə yol göstərən əxtər.

Çirkindir, əvət, ömr sürürkən ufaq olmaq,
Yüksəlməli, yüksəlməlidir aləmi-digər!

Kiməsə elə gələ bilər ki, Səməd Mənsur bu cür «proletar beynəlmiləlçiliyi» ilə «kapitalizm»dən «sosializm»ə keçirdi... Ancaq elə deyil...

Onun təbiətində, ruhunda sonu görünməyən, hüdudsuz bir romantika vardı. Və «əzənsiz», «əziləsiz» bir cəmiyyət (dünya!) görmək istəyirdi. Elə bir cəmiyyət (və dünya!) ki, hələ ancaq Dahilərin xəyallarında qurulur...

«...Doğru halət görmədim»... «Həpsi rəngdir»

Azərbaycan ədəbiyyatşünaslığında, mənim bildiyimə görə, Molla Pənah Vaqifin «Görmədim»i ilə Səməd Mənsurun «Həpsi rəngdir»ini ilk dəfə Abbas Çingiz (Abdullayev) müqayisə etmiş, ancaq nədənsə bu şeirlər arasındakı ideya-estetik varisliyin dərinliyinə varmaq əvəzinə, başladığı uğurlu müqayisəni tamamilə absurd istiqamətə yönəltmişdir.

Səməd Mənsur poeziyasının ən yüksək zirvəsi, heç bir mübahisəsiz demək olar ki, məşhur «Həpsi rəngdir» şeiridir. Və tamamilə təbiidir ki, şairin ilk kitabı da (Bakı, Azərbaycan Jurnalistlər Birliyi «Nicat» nəşriyyatı, 1993. Tərtib edəni və ön sözün müəllifi Anar. Redaktor Hacı Hacıyev) məhz bu adla nəşr edilmişdir. Kitabın «Dünyanı «rəng» bilən şair» başlıqlı ön sözündə Anar yazır:

«Səməd Mənsur (1879-1927) ədəbiyyat tarixlərimiz, ədəbiyyatşünaslıq kitablarımız, mətbuat səhifələrində adı az çəkilən, ya heç çəkilməyən, ya da çəkiləndə illər boyu mənfi səciyyələndirilən başıbəlalı şairlərimizdəndir. Hər halda lap son zamanlara qədər belə idi. Onun haqqında az-çox məlumatı olanların belə bildikləri nə idi? Bakıda anadan olub. Azərbaycanın sovetləşməsindən əvvəl şair kimi tanınıb. Sovet dövründə də bir neçə il yaşayıb, şeirlər yazıb və tazə həyata ironik, rişxəndli münasibət bəsləyib. Bir də onu bilirdik ki, Səməd Mənsurun

«Həpsi rəngdir» adlı şeiri var və bu şeirdə mürtəce, bədbin fəlsəfə ifadə olunub».

Və əlavə edir ki, «bu gün, nəhayət, çox sadə bir hikməti dərk etmişik – bədbinlik heç də mürtəce, zərərli, ziyanlı demək deyil. Mahiyyəti etibarilə, həyata bədbin, küsgün bir baxışı əks etdirən şeir də yüksək sənət örnəyi ola bilər. Hər halda Səməd Mənsurun «Həpsi rəngdir» şeiri min illik Azərbaycan şeirinin hər hansı bir antologiyasına, söz xəzinəsinə daxil edilməyə layiq bir əsərdir».

Şeir 1919-cu il martın 22-də qələmə alınsa da, məlum olduğu kimi, 1926-cı ilin mayında çıxan «Ədəbi parçalar» məcmuəsində, özü də maraqlıdır ki, «Klassik ədəbiyyatımızdan» başlığı altında dərc edilmişdir. Və bir tərəfdən, çox böyük maraq doğurmuş, digər tərəfdən, çox kəskin tənqidə məruz qalmışdı.

«Həpsi rəngdir» gərək yazıldığı günlərdə çap olunaydı... Əgər belə olsaydı, yəqin ki, Səməd Mənsur həm dövrün az-çox demokratiyasına, həm də özünün polad kimi möhkəm xarakterinə dayanıb sağ qala bilərdi. Ancaq 1926-cı ilin yazında çap olunan belə bir şeirin müəllifinin həmin ilin qışına qədər yaşaması da qənimət sayıla bilər.

«Həpsi rəngdir» Səməd Mənsurun sovet dövründəki ədəbi taleyini (və ümumiyyətlə taleyini) həll edən hadisə olmuş, çox zaman şairin dünyagörüşü, yaradıcılıq metodu barədəki rəsmi ideoloji mövqeyi bütün yaradıcılığı yox, yalnız bu şeir (əsər!) formalaşdırmışdır. Həmin mövqe isə təxminən bundan ibarət idi ki, Səməd Mənsur feodal-burjua təfəkkürlü, sosialist inqilabının nailiyyətlərini görməyən, nihilist, pessimist və mistik şairdir.

20-ci, 30-cu illərdə hər hansı şairə belə, yaxud buna bənzər bir damğa vurulurdusa, onun aqibətinin necə

olacağı Hüseyn Cavidin, Əhməd Cavadın, Mikayıl Müşfiqin tərcümeyi-hallarından yaxşı məlumdur. Və yəqin ki, bu barədə təfsilatı ilə bəhs etməyə də artıq heç bir ehtiyac yoxdur...

Lakin sual olunur: «Həpsi rəngdir» şeirində nə vardı ki, yeni yaranmış sovet ədəbi tənqidini (və ümumən sovet ideologiyasını) bu qədər qəzəbləndirmişdi?.. Tədqiqatçılar həmin suala cavab tapmağa çalışmışlar...

Nazif Ələkbərli yazır:

«Tədqiqatçı Abbas Çingiz «Hər şey rəngdir» şeirini Molla Pənah Vaqifin «Görmədim» müxəmməsi ilə müqayisə edir və S.Mənsurun bədbinliyinə haqq qazandırır. A.Çingiz öz məqaləsində yazır: «Görmədim» müxəmməsinin bədbin ruhu «nikbin» Vaqif üçün bir məziyyət sayıldığı halda bəs niyə ağır, əzab-əziyyətli, keşməkeşli bir dövrdə yaşayan S.Mənsur üçün bir qəbahət sayılır və tərkidünyalıq, bədbinlik, intihara çağırış, «ölüm və sərxoşluq himni» kimi qiymətləndirilir?»

«Rəngdir» şeirini təkcə «Görmədim müxəmməsi ilə deyil, klassik poeziyamızın bir sıra nümunələri ilə müqayisə etmək mümkündür»...

Əlbəttə, mümkündür və belə də olmalıdır. Hər şeydən əvvəl ona görə ki, Səməd Mənsurun yaradıcılığı, dünyagörüşü zəngin milli (klassik) ənənələrə əsaslanırdı, «improvizasiya» deyidi. Və yəqin ki, «Həpsi rəngdir»i ədəbi sələflik-xələflik baxımından müqayisə etmək üçün ən münasib tarixi fakt da məhz «Görmədim»dir... Ancaq məsələ bunda deyil... Tədqiqatçı Abbas Çingizi düşündürən odur ki, nə üçün sovet ideologiyası Vaqifi qəbul etdi, Səməd Mənsuru isə yox?..

Birincisi, 20-ci, 30-cu illərdə Vaqif, xüsusilə onun «Görmədim»i rəsmi ideologiya səviyyəsində elə də rahat həzm olunmurdu. Və bu «feodal-patriarxal təfəkkürlü» şairi həmin ideologiyaya qəbul elətdirməkdən ötrü çox zəhmətlər çəkilmişdi... Eləcə də dahi Füzulini!..

İkincisi isə, Vaqifin «Görmədim»i çox əvvəlki dövrlərə aid idi. O dövrlərə ki, sovet ideologiyasının özünün də tənqid hədəfi idi... Səməd Mənsur isə hər şeyin «rəng» (saxta!) olduğunu 20-ci illərin «tribuna»sından deyirdi...

Uyma, ey dil, xəlqdə yoxdur sədaqət, rəngdir,
Məscidü meyxanə rəng, eyşü ibadət rəngdir,
Mey riya, məşüqə ğəşş, hüsnü vəcahət rəngdir...
Rəngdir hər dürlü matəm, hər müsərrət rəngdir,
Anla, ey əbnayi-xilqət, cümlə xilqət rəngdir.

Səməd Mənsur XIX əsrin sonlarında artıq dünya işlərindən baş çıxaran fəhmli bir gənc idi. Və nəzərə alsaq ki, bu dövrdən etibarən «neft bumu» yaşayan Bakı da mənən-ruhən elə o yaşda, o fəhmdə idi, onda təsəvvür etmək çətin deyil ki, Səməd Mənsurun əhvali-ruhiyyəsi ilə vətəni Bakının ovqatı müxtəlif parametrlər üzrə nə qədər üst-üstə düşürdü...

Görmədim bir zərri-xalis buteyi-nasutdə,
Mənəvi min ləkə gördüm ləldə, yaqutdə,
Biqərar insan olur görmək fəqət tabütdə...
Bilmərəm varmı sədaqət aləmi-lahutdə,
Azma, fikrim, cümlə ecazü kəramət rəngdir.

XX əsrin ilk illəri təhsilini həyatdan alan (özü də necə həyatdan?.. Bir tərəfdə dövlət – imperiyalar, o biri tərəfdə ona qarşı üsyanlar!.. Bir tərəfdə din, o biri tərəfdə ona «qarşı» təriqətlər!.. Bir tərəfdə Allah, o biri tərəfdə allahlıq iddiasında olan növbənöv şeytanlar!..) Səməd Mənsurun müəllimi nə qədər laübali olsa da, o qədər səmimi idi...

Hər kəsin Cibrili kəndi qəlbidir, vicdanıdır,
Var isə insafı şəxsin, dinidir, imanıdır,
Bədnihad insanların öz nəfsi öz şeytanıdır...
Lövhi-qəlbi arifin ayatıdır, Quranıdır,
Mabədi övhamıdır, şərü təriqət rəngdir.

Və bu laübalı səmimiyyətdən çıxan nəticə o idi ki, İnsan şəxsiyyəti (özünün mürəkkəb psixoloji təbiətilə birlikdə) hər şeyin fövqündədir. Əgər onun vicdanı varsa... Qalanı, necə deyərlər, «təfərrüat»dır...

Bir zaman vardı ki, mən həmfikir idim zöhhad ilə,
Sonra gördüm fərqi yoxmuş zahidin cəllad ilə,
Dedim, əyyaş olmalı, ta gün keçə mötad ilə...
Cümlə eyşü nuşi gördüm müxtəlif fəryad ilə,
Anladım ki, zöhdü təqva, eyşü işrət rəngdir.

«Həpsi rəngdir»də Səməd Mənsurun ən uğurlu metaforalarından biri şair uydurmasına «takılması»dır... Azərbaycan poeziyası tarixində belə cəhdlər, əslində, çox olmuş, «Həpsi rəngdir» müəllifinin Ustadı bir vaxtlar hətta «aldanma ki, şair sözü, əlbəttə, yalandır» demişdi...

Ancaq Səməd Mənsur məsələnin «kök»ünə gedir...

Qıl təsəvvür bir daha şairlərin xülyasını,
Aşiqi-zarın başında seyr qıl sövdasını,
Qəbri aç, göstər ona Şirinini, Leylasını...
Bir ayılsın da, düşünsün gördüyü röyasını,
«Bax», deyir, «həqqi, bütün eşqü
məhəbbət rəngdir»...

«Həpsi rəngdir» şeirinin ideya-estetik məzmununu, xüsusilə müəllifin mənsub olduğu yaradıcılıq metodunu müəyyənləşdirmək baxımından, həm böyük maraq, həm də müəyyən mülahizələr doğurmuşdur...

Nazif Ələkbərli yazır:

«Səməd Mənsurun poetik-fəlsəfi idrakı həmişə rənglərlə nəfəs alır, rənglərlə düşünür, əsas istiarə kimi rənglərdən istifadə edir. Bu mənada əsrin əvvəllərində o, simvolizmə ən yaxın və hətta bu simvolizmi təbliğ və təlqin edən şairlərdən biri olmuşdur».

Əlbəttə, fikrin birinci hissəsi nə qədər doğrudursa, ikincisi o qədər yanlışdır. Çünki bu, simvolizm deyil, rəng simvolikasından, sadəcə, yüksək sənətkarlıqla istifadədir. Ona görə də Səməd Mənsuru XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatına «simvolizmi təbliğ və təlqin edən şairlərdən biri» kimi təqdim etmək nə simvolizm nəzəriyyəsi, nə Səməd Mənsurun yaradıcılıq metodu, nə də şairin yazıb yaratdığı dövrün ədəbi metod axtarışları baxımından özünü doğruldur.

Digər bir mübahisəli məsələ «Həpsi rəngdir» şeirinin yaranmasında hansısa konkret tarixi hadisələrin təsirinin olub-olmamasıdır.

Nazif Ələkbərli, prinsip etibarilə, belə bir təsirin olduğu qənaətindədir. Və ona görə də yazır:

«...19-cu ildə nə olmuşdu, nə baş vermişdi ki, şairin ovqatına güclü təsir göstərmişdi? Qısa müddət ərzində bir neçə Nazirlər Kabinetinin dəyişməsi, Azərbaycan istiqlalı üzərində təhlükə, xüsusilə bolşeviklərin çevriliş ərəfəsində xüsusi fəallaşması, Şimaldan Denikin təhlükəsi – bütün bunlar dövrün bədii təfəkküründə əhəmiyyətli dərəcədə əks olunmuşdur»...

Fikrimizcə, dərin ictimai-fəlsəfi təfəkkürün (və yüksək bədii-metafizik ümumiləşdirmənin) məhsulu olan «Həpsi rəngdir» şeirini bir ilin, nə qədər mürəkkəb olursa-olsun, hadisələrinin doğurduğu ovqatın nəticəsi kimi qəbul etmək doğru deyil... Təyyar Salamoğlunun aşağıdakı mülahizəsi də məhz bu baxımdan bizə mübahisəli görünür:

«Həpsi rəngdir» şeiri S.Mənsurun yaradıcılığının ən müvəffəqiyyətli nümunəsi olmaqla, onun yaşadığı cəmiyyətin, qoynunda dolaşdığı ictimai mühitin çürüklüyünü, mənəvi eybəcərliyini bütün çılpaqlığı ilə təsvir edən bir əsərdir.

...S.Mənsur həyatı dərin müşahidə nəticəsində yaşadığı mühitdə sədaqətlilərin sədaqətinə, kərəm əhlinin kərəminə, məsləklilərin məsləkinə, aşiqlərin eşqinə və s. inanmır, bunların bir rəng olması qənaətinə gəlir».

Hərçənd Təyyar Salamoğlu şeirin yaranmasına təsir edən konkret tarixi hadisə və ya hadisələrdən deyil, bütöv bir dövrün cəmiyyətinin və mühitinin «eybəcərliy»indən, «çürüklüy»ündən bəhs edir, ancaq bu da əsas sayıla bilməz.

Səməd Mənsurun tədqiqatçılarından Yadigar Mehdiyeva yazır:

«...Həyatı tünd rənglərlə görən S.Mənsurun kədəri qabaqcadan duyduğu tarixə əsaslanırdı».

Fikrimizcə, bu sözlərdə müəyyən həqiqət var. Belə ki, Səməd Mənsur «həpsi rəngdir» deyəndə, doğrudan da, bir ilin, bir dövrün deyil, bütün dövrlərin mənzərəsini, yaxud məzmun-mahiyyətini nəzərdə tutur. Və bu cür miqyaslı ümumiləşdirmə məhdud bir zaman hadisələri üzərindəki müşahidələrin və ya həmin hadisələrin bilavasitə təsirinin nəticəsi ola bilməz...

Çünki fəlsəfi mühakimənin zamanı yoxdur...

«Həpsi rəngdir» isə bütünlükdə fəlsəfi mühakimələrdən ibarətdir...

Tapmadım aləmdə bir həmdəm ki, olsun biriya,
Görmədim heç kəsdə bir niyyət qərəzdən maəda,
Küllən əbnayi-bəşər öz nəfsinə olmuş fəda...
Nəfsi uğrunda görürsə hər bəla, hər macəra,
«Məslək»ə isnad edər, məslək, dəyanət rəngdir.

XVIII əsrin sonlarının Vaqifi ilə XX əsrin əvvəllərinin Mənsuru arasında «Görmədim»lə «Həpsi rəngdir»in müqayisəsi kontekstində həyata (və dünyaya) ideya-estetik (metodoloji!) baxışda bir fərq varmı?..

«Var!» deyən varsa, «Həpsi rəngdir»də Vaqiflə Mənsurun yalnız ovqat fəlsəfəsini deyil, ortaq poetik leksikonunu da gərək görməsin...

Bilmədim neyçinmiş aləm, bunca da yəsü ələm,
Zövrəqi-ömrün mühiti vərtəban,dəryayi-qəm,

Böylə halda kimsədən bihudədir ummaq kərəm...
Hər gələn bulmaq dilər öz nəfsinə asudə dəm,
Arxalanmam kimsəyə, ülfət, rəfaqət rəngdir.

Odur ki, Nazif Ələkbərlinin nə «Həpsi rəngdir» müxəmməsi milli simvolizmin ən yüksək zirvəsi sayıla bilər» gümanı, nə də «bu şeirin qaynaqları klassik nur fəlsəfəsindən, işraqilikdən və ya emanasiya ideyalarından gəlir» qənaəti özünü doğrultmur. Aşağıdakı fikri isə, nə gümandır, nə də qənaət, ancaq etiraf edək ki, maraqlıdır, ən azı absurdluğuna görə:

«...Rəngə sitayiş «Rəngdir» şeirinin yazılıdığı illərdə çox aktual görünürdü. Belə ki, Rusiyada vətəndaş müharibəsi «ağlar»ilə «qırmızılar» arasında gedirdi. Ağ qvardiya qırmızı qvardiya ilə çarpışırdı, ağ bayraqların qırmızı bayraqları yenməsi üçün güclü mübarizə aparılırdı. Müstəqillik elan edən ölkələrin çoxu üçrəngli bayraqlarla siyasi səhnəyə atılırdılar».

«Həpsi rəngdir» şeirini daha dərindən anlamaq üçün, elə bilirik ki, bir istinad nöqtəsi də var ki, onu «Talesiz şairin taleyi» məqaləsinin müəllifi Təyyar Salamoğlu göstərmişdir:

«Şəxsi həyatında... nə qədər çox məhrumiyyətlərə məruz qalmışdırsa da, S.Mənsur insan «nəcib xislətli, pak vicdanlı olmalıdır» əqidəsində olmuş, bütün həyatı boyu bu fikrə sadiq qalmışdır... Bütün bunlarsız S.Mənsuru «Həpsi rəngdir» şeirinin müəllifi kimi də dərk etmək qeyri-mümkündür».

Vaqifin «Görmədim»ində həyatın «metafizika»sından «çıxış yolu» göstərilmir, Mənsurda isə, Vaqifdən yeganə fərq odur ki, bu «yol» var...

İndi ki mümkün deyil aləmdə olmaq kamyab,
Ey gözüm qurbanı, saqi, ver genə sağər-şərab,
Ver genə sağər-şərab, ey saqiyi-alicənab...
Bəlkə, bədənlə edə Mənsur rahət iktisab,
Yoxsa, bu aləmdə yoxdur istirahət, rəngdir...

Şeiri üç nöqtə ilə bitirdim, lakin eyni müvəffəqiyyətlə nida (!..) və ya sualla (?..) da bitirmək olardı... Birinci halda şərab (tərki-dünyalıq!) rənglərdən (saxtakarlıqdan) ibarət dünyadan xilas yolu («istirahət») demək olardı, ikinci halda isə bu cür «istirahət»dən də rəngin (saxtakarlığın) növbəti təzahürü kimi imtina etmək mənasına gələrdi.

Şair bunlardan hansını demişdi, deyə bilmərəm...

Ancaq onu deyə bilərəm ki, heç biri sovet ideologiyasını «ustraivat» eləmirdi. Elə isə «Oktyabr və türk ədəbiyyatı» (1930) kitabının müəllifi bədbəxtdən (və ya onun kimilərindən) niyə inciyirik ki, böyük şairə ölümündən sonra da ölüm hökmü yazmalı olub, bir halda ki, «həpsi rəngdir»?..

«Həpsi rəngdir» Azərbaycan poeziyasında bir şairin şeiri olaraq qalmadı, nə qədər yasaq edilsə də geniş yayıldı və ona nəzirələr yazıldı ki, mükəmməllərindən biri Məhəmməd ağa Müştəriyə məxsusdur:

Uyma dünyayə, könül, çün kari-dünya rəngdir,
Çək nəzər şu seyrgəhdən kim, bu məva rəngdir,
Fərşi-gülşəndə çəkilmiş nəqşi-ziba rəngdir,
Müxtəlif rəngə düşən güllər sərapa rəngdir,
Əlqərəz, şu bağda nə varsa, yeksa rəngdir.

Mehri-aləmtabdır gül çöhrəsin rəngin edən,
Bülbülün nahəq qanıdır gül üzün təlvin edən,
Hüsni-Yusifdir Züleyxa tələtin təzyin edən,
Heyf kim, yox bu sözü üşşaqə bir təlqin edən,
Hüsni-Yusif rəngdir, hüsni-Züleyxa rəngdir.

Müxtəlif rəngə düşən bir şəxsə dün oldum düçar,
Söylədim, ya rusiyahü bədşüarü kəcmədar,
Gündə bir rəngi nə üçün eyləyibsən ixtiyar,
Rasüxündə söylədi: qəflətdəsən, ey huşyar,
Bax cəhan miratinə, billurasa rəngdir.

Məclisi-işrət ara çarpdı gözə bir şux şəng,
Rəng alırdı ləblərindən, badeyi-yaqutrəng,
Çün Nəkisa, Barbəd çalıb oxurdu nayü cəng,
Söylədim: ey Xosrovü Şirindən yüz gəz qəşəng,
Bu nə məhfildir, dedi: sonra, təmanən rəngdir.

Məscidü camedə, ey dil, tutma minbər tək məqam,
Səcdədən çün bir yerə səf-səf cəm olmuş xasü am,
Təsbehin mövlası tək ayrılmış onlardan imam,
Zahidi-xüşkün namazına gəl uyma sübhü şam.
Şu sözü övraq qıl kim, zöhdü təqva rəngdir.

Ey könül, sevmə cahanı, sən deyən dilbər deyil,
Dilbər ol kəsdir ki, o möhtaci-heç zivər deyil,
Çeşmə çarpan arizidir, zatən o həm cövhər deyil,
Öylə bir dildar bul, rəngi onun izhar deyil,
Qan ki, zahirdə olan məcmui-əşya rəngdir.

Müştəri, aç didəni, qıl kainatə bir nəzər,
Nilgün xəm içrə gör qaç lövnə girmiş bəhrü bər,
Çərxi-əladə çəkilmiş gör nə əlvan nəqşələr,
Bax neçə min rəngə düşmüş surəti-növi-bəşər,
Müxtəsər, dünyavü matiha sərasər rəngdir.

«Həpsi rəngdir» bəşər təfəkkürünün çox dərin qatlarından gəldiyinə görədir ki, milli ictimai şüurda bu qədər miqyaslı rezonans verə, bütün dövrlərin və zamanların ideya-poetik hadisəsinə çevrilə bildi.

Və müstəmləkə təzyiqi bir balaca imkan verən kimi dövrün böyük şair-mütəfəkkiri Rəsul Rza öz «Rənglər» silsiləsini qələmə alıb cəsarətlə Səməd Mənsuru xatırladı...

«Dedim... Yenə deyirəm...»

Səməd Mənsurun həm bir şəxsiyyət, həm də bir şair kimi qüdrəti onda idi ki, dediyi sözün üstündə axıra kimi dura bilmişdi...

Mən dedim «rəng», yenə rəngi-mükərrər deyirəm,
Rəngdir ərzü səma, bərzəxü məhşər deyirəm,
Rəngdir ruhü bədən, məsnədü çənbər deyirəm,
Duraraq cümleyi-afaqə bərabər deyirəm:
Etirazın mənə, ey tazə cavan, gülməlidir!

Səməd Mənsurun yeganə «Seçilmiş əsərləri»nin (tərtib edənlər: Əliheydər Hüseynov, Təranə Hüseynova, Abbas Abdullayev) «İzahlar və şərhlər»ində göstərilir ki, «Hansı bir türk şairi isə «Həpsi rəngdir» şeirinə tənqidi bir şeir yazmış, S.Mənsur da ona cavab olaraq «Gülməlidir»i qələmə almışdır»... Təəssüf ki, nə həmin «tənqidi şeir», nə də onun müəllifi «hansı bir türk şairi isə» indi heç kimin yadında qalmayıb, ancaq o «tazə cavan»a «qoca» şair-mütəfəkkirin cavabı tarixə yazılıb:

Tairi-fikrim ilə göyləri gəzdim yeksər,
Ta görüm ki nə imiş şəmsü kəvakibü qəmər,
Parlayır dideyi-əcubə kimi min əxtər,
Hərə yıldız arayır bəxtinə, həp ondan əsər,
Gözləyir, mənzərəsi etdi məni zirü zəbər,
Nöh fələkdən hanı bir namü nişan, gülməlidir.

«Tazə cavan» nə demişdi bilmirik, ancaq «qoca» şair-mütəfəkkir deyir ki, mən hər kəsin imdad gözlədiyi göylərdən də xəbərdaram, oralara da ümid yoxdur... Çünki hələ indiyə qədər bir «namü nişan» verməmiş, nə işin yiyəsi olduqlarını bildirməmişlər... Bu isə o deməkdir ki, onların özləri kimi, onlara bəslənən ümidlər də «rəng»-dir...

Parçalar gördüm uçur hər tərəfə sərgərdan,
Bilmək olmaz belə tedadını milyan-milyan,
Hamı biheysü şüur etmədə daim dövran,
Ədəmi-nərmü nizam əqlimi qılmış heyran,
Nə demək Əqrəbü Cövza, o həmin, ya Sərətan,
Vəhmdir həpsi xəyalat, inan, gülməlidir.

«Həpsi rəngdir»dəki fəlsəfi idrak dərinliyi (və poemetafizik interpretasiya mükəmməlliyi!) burada da var. Və söhbət sadəcə «var» deməklə bitmir... Nə özünün adını, nə də şeirinin məzmun-mündərəcəsini bilmədiyimiz, yalnız Səməd Mənsurun cavabına görə yaddaşlarda qalan anonim şairə-«tazə cavan»a ona görə minnətdar olmalıyıq ki, bir dəfə «Həpsi rəngdir»lə püskürüb «yuxuya getmiş» vulkanı təzədən oyatmış...

Göyü, əflakı burax, ərzdən et əzmi-kəlam,
Bu nədir fırlanıyor ortada top kimi müdam,
Milyon illər yürüyür, ləmhə də tutmaz aram,
Milyon illər edəcəkdir yenə süğlükdə dəvam,
Neyçün, aya, nəyə lazım bu təkapu, bu xüram?
Əqlin olsun, necə gör bu dəvəran gülməlidir!..

Bu misraları oxuduqca mən heç bir şəkk-şübhə etmirəm ki, sovet ideologiyası, həmin ideologiya əsasında həyata keçirilmiş «inqilab» və həmin «inqilab»ın təzahürü olan rəsmi-inzibati idarəçilik sistemi Səməd Mənsuru, öz əcəli ilə bu dünyanı tərk eləməsəydi, ya güllələməli, ya da Sibirdə çürütməli idi...

Parça bir cismi-müdəvvərdə doğmuş insan,
Bir taqım gəlmədədir, bir taqım ifnayə rəvan,
O gələnlər, yaşayanlar gedəni görməz, aman!
Bu nə qəflət? Səbəbi rəngdir, ey adəmiyan!
Rəng qoymuş bu kiçik şeyləri həp sərgərdan,
Hirsü sövda buna heç verməz aman, gülməlidir!

Dünyanın nə «dövr», nə «dövran», nə də «dəvəran»ında bir məntiq olmadığı kimi, «gəlib-gedən»i arasında da bir əlaqə, münasibət, sədaqət, varislik etiraf olunmur, hər gələn hakimiyyət tarixi özündən başlayır, əvvəlkinin «torpağını torbayla daşıtdırır», «inqilab», «yenilik» deyib qarşısına çıxanı vurub dağıtmaqdan, qırıb çatmaqdan vəcdə gəlir...

Görə bildinmi bu aləmdə sədaqətdən əsər?
Kimdə gördün? Nə zaman? Ver bizə də barı xəbər...
Müstəiddirmi sanırsan şərəfə, sidqə bəşər?
Hansı bir qüvvə bunu qılmış ona müstəhzər?
Bəlkə mən səhvdəyəm, səhvimi vazeh göstər,
Yoxsa bu səndəki hiddət, xəfəqan gülməlidir!

Dünyanın böyük mütəfəkkirləri hər cür inqilabın, xüsusilə onun ölümlə, qanla nəticələnən «qələbə»sinin əlehdarı olmuşlar. «İnqilab» həmişə özünün «nikbin» (və şeytan!) şüarları, hələ qədim dövrlərdə dahi Aristotelin «Siyasət» kitabında zəngin təcrübənin nəticəsi olaraq ümumiləşdirdiyi kimi, «nəticəsiz demokratiya»sı ilə gəlir... Guya «yeni tarix» yazır, ancaq ehtiraslar soyuyandan sonra Tarix öz əvvəlki (və əbədi!) yolu ilə davam edir... Arada xırda, mənasız (və cahil!) bir «nikbinlik» qalır...

Bu nikbinlik, bu təcahül, bu ğəram ağlamalı,
Xalq təhribinə manedi, müdam ağlamalı!
Hamı məmnundur özündən, bu, tamam ağlamalı,
Hamı vermiş fərəsi-nəfsə lücam, ağlamalı,
Xasü am ağlamalı, püxtərü xam ağlamalı!
Bunu inkar eləyən mötərizan gülməlidir!

Şair öz «cavan tənqidçi»sinə əvvəl çox geniş (kainat miqyaslı!) mətləblərdən, sonra cəmiyyətin keçdiyi uzun tarixi yoldan danışır, daha sonra isə lap yaxına gəlib, heç olmasa, dahi Şekspirin «Afinalı Timon» əsərini oxumasını məsləhət görür:

Rəng bu dəhrdə təmkin eləmişdir bəşəri,
Gəlməz heç guşədən aləmdə ədalət xəbəri,
Al da tətbiq elə bir «Timon Afinli» əsəri,
Gör Şekspir nə deyir, hikmətin ali pədəri:
Rəngdir, rəng-deyir, -xilqətin ancaq səməri,
Sarı bir rəngə boyanmış bu cahan, gülməlidir!

Və müdrik şair, nəticə etibarilə, həm özünün təcrübəsinə (heç də təəccüblü deyil: qısa ömründə üç «epoxa» görmüşdü – əvvəl imperiya hakimiyyəti, sonra Xalq Cümhuriyyəti, sonra da Sovetlər Birliyi), həm də özündən böyüklərin tövsiyyəsinə əsaslanaraq bir daha təsdiq edir ki, dünyanın «zat»ından xəbərsiz olan «tazə cavan» tənqidçi yox, hətta «tənqid»inə qalxdığı «Həpsi rəngdir»in müdrik müəllifin özü də «gülməlidir»...

Rəngi anlatdı mənə təcrübələr çox əyyam,
Nerəyə baxdım isə, rəng göründü mənə tam,
Bircə misrada qoyub Xacə bütün bəhsə xitam:
«Hər kəsi ruzi-behi mitələbəd əz əyyam».
Cam doldur mənə, ey saqiyi-şəngül, mənə cam,
Mənü sən gülməliyiz, piri cavan gülməlidir!

Bu, yalnız «metafizika»nın interpretasiyası deyil, həm də «interpretasiya»nın metafizikasıdır...

Son söz

Səməd Mənsur, bu da bir sirri-xudadır ki, gələcəyə nikbin baxır, hüququn, haqq-ədalətin qələbəsinə inanırdı. «Oğlum Əhməd Tofiqə vəsiyyətim» (1925) də yazırdı:

Bizim də ölkədə, Əhməd, gələr bir öylə zaman,
Hüquqa malik olar millət, gülər vətənim.
Hüquq! hüquq!.. Nə gözəl şey!.. Yetişməz isə əlim,
Mən ölmüş olsam, hüquqa həsrətimi,
Qızıl qüyuddə mənən çəkən əziyyətimi
O gün məzarıma qoş! Sanma bir ovuc xakim,
O gün vücudunu gözlər o xaki-qəmnakim.
Qoşub məzarimə ver, Əhmədim, bəşarətini,
Duyar qübarım, inan, giryeyi-səadətini!..

Mündəricat

Səməd Mənsurun qayıdışı 3
Ön söz 13
Mövzuca rəngarəng, ideyalı, məsləkli poeziya 17
«Qəzəl de ki»... 23
«Mənə naz et»... 30
Sabirdən sonrakı Sabir 36
Milliyyət... Və beynəlmiləliyyət 54
«...Doğru halət görmədim»
«Həpsi rəngdir» 61
«Dedim... Yenə deyirəm...» 73
Son söz 78

«Elm və təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Operator: ***Mərifət Cəfərova***
Dizayner: ***Zahid Məmmədov***

Çapa imzalanmış: **24.02.2017.**
Şərti çap vərəqi: **5.** Sifariş: **№ 107.**
Kağız formatı: **84x108 1/32.** Sayı: **200.**

Kitab *«Elm və təhsil»* nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4

AZ-I
42975